QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 185 (5416) 12 **oktyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymət 40 qəpik**

# Prezident İlham Əliyev Soçidə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak edib



Səh 2

Ali Baş Komandan ərazi bütövlüyümüzün qarantıdır



4

“AŞPA müəyyən məqsədli dairələrin əlində təzyiq vasitəsinə çevrilib və konkret sifariş yerinə yetirir”



3

Mixail Myasnikoviç: “Belarus Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verir”



6

“Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır”



8

Səməd Seyidov: Bəzi qüvvələr AŞPA-da Azərbaycana qarşı nifrət kampaniyası yaratmağa cəhd edirlər



3

Cocuq Mərcanlıda əsas tikinti işləri başa çatıb



9

7

AŞPA-nın sessiyasında Azərbaycanla bağlı iki qətnamə qəbul edilib



6

İsrail portalında fransalı blogerin Azərbaycandakı yəhudi icması haqqında məqaləsi dərc olunub



16

Tamblinqçimiz İspaniyada bürünc medal qazanıb



# Soçidə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak edib*

Oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin məhdud tərkibdə görüşdə qarşılıqlı fəaliyyət və





əməkdaşlıqla bağlı ətraflı müzakirələrin aparıldığını dedi. Rusiya dövlətinin başçısı gələn il yanvarın 1-dən quruma sədrliyin Tacikistana keçəcəyini bildirdi.

Tacikistan Prezidenti Emoməli Rəhmon qeyd etdi ki, əldə olunmuş nəticələrin möhkəmləndirilməsi ölkəsinin MDB-yə sədrliyi dövründə prioritet məsələ kimi qalacaq. Tacikistan Prezidenti iqtisadi, energetika, alternativ enerji, yüklərin tranziti, logistika, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyinin təmini məsələlərinə diqqət yetiriləcəyini vurğuladı, humanitar, turizm, innovasiya, ətraf mühitin mühafizəsi, terrorizmin və mütəşəkkil cinayətkarlığın qarşısının alınması istiqamətində əlaqələrin genişləndiriləcəyini dedi.

MDB-nin beynəlxalq qurumlarla əlaqələrinə toxunan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov siyasi sahədə əməkdaşlıqdan danışdı. Qeyd etdi ki, MDB ölkələri arasında qarşılıqlı etimadın artırılması olduqca vacib məsələlərdən biridir.

MDB Parlamentlərarası Assambleyası Şurasının və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko Parlamentlərarası Assambleya Şurasının fəaliyyətindən danışdı, humanitar sahədə dinamik əməkdaşlığın inkişaf etdiyini vurğuladı.

Sonda çıxış edən Rusiya Prezidenti Vladimir Putin siyasi dialoqun, təhlükəsizlik, iqtisadiyyat sahələrində əməkdaşlığın genişləndiyini bildirdi, bu ilin əvvəlindən qarşılıqlı ticarət dövriyyəsinin 25 faiz artdığını qeyd etdi.

Daha sonra sənədlərin imzalanması mərasimi oldu. Ümumilikdə, qurumun fəaliyyəti ilə bağlı 18 sənəd imzalandı.

# Prezident İlham Əliyev Soçidə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak edib





Oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı. Azərbaycan və Rusiya prezidentləri birgə foto çəkdirdilər. Dövlət başçıları birgə foto çəkdirdikdən sonra iclas öz işinə başladı.

İclasın gündəliyinin kifayət qədər zəngin olduğunu deyən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bildirdi ki, burada MDB çərçivəsində qarşılıqlı əlaqələrin gələcəkdə möhkəmləndirilməsi yolları müzakirə olunacaq, əməkdaşlığın səmərəliliyinin artırılması istiqamətində fikir mübadiləsi aparılacaq. Rusiya Prezidenti vurğuladı ki, iclasda əsas diqqət ənənəvi olaraq iqtisadi, ticari və investisiya qoyuluşu sahələrində, həmçinin humanitar sahədə əlaqələrin inkişafına yönələcək. Prezident Vladimir Putin qarşılıqlı maraqlara əsaslanan yeni iri layihələrin həyata keçirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğuladı, görüşün mədəniyyət, təhsil, elm, turizm sahələrində təcrübə mübadiləsinin genişləndirilməsinə təkan verəcəyinə əminliyini ifadə etdi.

Sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev qeyd etdi ki, iclasın gündəliyi 16 məsələdən ibarətdir. Təqdim olunan sənədlərin layihələri ekspertlər tərəfindən araşdırılıb, ölkələrin nümayəndələri ilə razılaşdırılıb. İqtisadi sahəyə aid sənədlər isə MDB İqtisadiyyat Şurası tərəfindən təsdiq olunub. Prezident İlham Əliyev iclasda çıxış etdi.

# "AŞPA müəyyən məqsədli dairələrin əlində təzyiq vasitəsinə çevrilib və konkret sifariş yerinə yetirir"

***Oktyabrın 11-də Avropa Şurası Parlament Assambleyasında (AŞPA) həmməruzəçilər Stefan Şennak və Sezar Florin Predanın hazırladıqları "Azərbaycanda demokratik təsisatların vəziyyəti" adlı hesabat üzrə 14403 saylı Qətnamə, həmçinin belçikalı parlamentari Alen Desteksin hazırladığı "Azərbaycanın Avropa Şurasında sədrliyi: insan hüquqlarına əməl edilməsi sahəsində atılacaq növbəti addımların vəziyyətinə dair" 14397 saylı Qətnamə qəbul olunub.***



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a açıqlamasında Azərbaycana dair qəbul olunmuş sənədlərə münasibət bildirərək deyib:

-Hesab edirəm ki, AŞPA müəyyən maraqlı antiazərbaycan dairələrin subyektiv mülahizələri əsasında hazırlanmış və xüsusi məqsəd daşıyan bu sənədləri qəbul etməklə növbəti dəfə ölkəmizə qarşı öz qərəzli və ədalətsiz mövqeyini nümayiş etdirdi.

Məlumdur ki, Azərbaycan bu quruma üzv olduğu dövrdən keçən müddət ərzində ardıcıl şəkildə müəyyən lobbi qrupların və xüsusilə də erməni təəssübkeşlərinin təzyiqi ilə üzləşib. Cənab Torbyorn Yaqland baş katib olduğu dövrdə isə bu təzyiqlər daha da artıb və kəskinləşib. Bu da onun Azərbaycana qarşı xüsusi mənfi münasibətindən irəli gələn məsələdir. Açıq-aydın hiss olunur ki, öz milli maraqlarına uyğun müstəqil siyasət yürüdən və prinsipial mövqeyi ilə seçilən Azərbaycanın AŞPA-da fəallığı bir çoxlarına sərf etmir. Əks təqdirdə, parlamentarilər daha çox islamofobiya, ksenofobiya, irqi və dini ayrı-seçkiliyin baş alıb getdiyi, insan hüquqlarının, ifadə azadlığının kobud şəkildə pozulması hallarının artdığı Avropanın gələcəyi barədə düşünər və bu problemlərin aradan qaldırılması yollarını axtarardılar. O cümlədən İnsan Haqları üzrə Avropa Məhkəməsinin 10 minə yaxın qərarının icra olunmamasından narahatlıqlarını ifadə edərdilər. Krım məsələsinə görə Rusiyaya sanksiya tətbiq olunduğu halda, nəyə görə 25 ildir Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan Ermənistan barədə ölçü götürülməməsi məsələsini qaldırardılar və Avropanın fundamental dəyərlərinə bu dərəcədə açıq hörmətsizlik nümayiş etdirməzdilər.

Bu gün demokratiya yolu ilə inkişaf edən, Avropa İttifaqı ilə strateji tərəfdaşlıq haqqında saziş imzalamağa hazırlaşan Azərbaycanın süni şəkildə sıxışdırılması bir daha göstərir ki, AŞPA müəyyən məqsədli dairələrin əlində təzyiq vasitəsinə çevrilib və konkret sifariş yerinə yetirir. Əlbəttə, bu kimi əsassız sənədlər qəbul etməklə Azərbaycana təzyiq göstərmək mümkün deyil. Azərbaycan müstəqil, güclü dövlətdir, daxili və xarici siyasət prioritetləri vardır və bundan sonra da öz yolu ilə irəliləməkdə davam edəcəkdir.

Subyektiv mülahizələrə əsaslanan bu tipli qərəzli sənədlərin qəbul edilməsi, təzyiq cəhdlərinin artması Azərbaycanı Avropa Şurası ilə münasibətlərini yenidən nəzərdən keçirməyə məcbur edir.

# Səməd Seyidov: Bəzi qüvvələr AŞPA-da Azərbaycana qarşı nifrət kampaniyası yaratmağa cəhd edirlər

AŞPA-nın sessiyasında keçirilən bugünkü müzakirələr Avropa Şurasında Azərbaycana qarşı müxtəlif qruplar, xüsusilə ermənilər tərəfindən dəstək alan qruplar olduğunu və onların ölkəmizi yersiz tənqid etməyə cəhd etdiklərini bir daha aydın şəkildə göstərdi.




Bu fikri AŞPA-da "Azərbaycanda demokratik təsisatların fəaliyyəti", "Azərbaycanın Avropa Şurasına sədrliyi dövründə insan haqlarına hörmət sahəsində atılan addımlar" adlı hesabatlar üzrə qətnamələrin qəbul edilməsindən sonra assambleyadakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində deyib. Əslində AŞPA-nın heç bir iclasında iştirak etməyən şəxslər - Omtziq, Ştrasser bu gün sessiyaya gəlib ölkəmizi tənqid etmək fürsətini əldən vermək istəməyiblər. Onlar açıq-aşkar qarşılarına məqsəd qoyublar ki, AŞPA-da Azərbaycana qarşı lobbiçilik, nifrət kampaniyası yaratsınlar. Özləri də ancaq yalan danışmaqla, böhtan atmaqla məşğuldurlar.

Azərbaycan hüquqi islahatlar həyata keçirməklə beynəlxalq münasibətlər sistemində mövcud olan mütərəqqi hüquqi quruluşlar arasında öz yerini möhkəmlədib və ən fəal üzvlərdəndir. Azərbaycanın apardığı hüquqi islahatlar, hakimlərin təyin olunması, hüquq qanunvericiliyinin inkişaf etdirilməsi bütün ölkələr tərəfindən yüksək qiymətləndirilib. Məruzəyə "Azərbaycanda hüquq islahatlarına başlamaq lazımdır" ifadəsi ilə başlamaq o deməkdir ki, ya Azərbaycanda gedən proseslərə, ümumiyyətlə, diqqət yetirmirlər, ya da qəsdən ölkəmizə qarşı belə əsassız iddialar irəli sürərək Azərbaycanla Avropa Şurası arasında uçurum yaratmaq istəyirlər.

Ancaq onlar istədiklərinə nail ola bilmədilər. Qətnamələrlə bağlı müzakirələrdə çıxış edən Avropa parlamentariləri və nümayəndə heyətimizin üzvləri Azərbaycanın inkişafı, mövqeyi, gördüyü işlərlə bağlı konkret faktları diqqətə çatdırdılar.

Səməd Seyidov deyib: "Artıq Avropada, eləcə də AŞPA-da yaxşı başa düşürlər ki, Avropa Şurasının baş katibi Avropa İnsan Haqları Məhkəməsinin yerinə yetirilməyən 10 min işini kənara qoyaraq ölkəmizlə bağlı bir işin üstünə düşüb. O, bununla Azərbaycanın imicinə, nüfuzuna zərbə vurmaq niyyətindədir. Biz konkret olaraq bildirdik ki, bəzi kampaniyaların arxasında erməni lobbisinin pulları durur. Bəzi ölkələrlə gecə-gündüz çalışıb dialoq qururlar, ancaq Azərbaycanla bağlı uçurum yaratmaq istəyirlər. Bu cəhdlərin arxasında dayananlar ölkəmizi istəməyən qüvvələrdir. Bu qüvvələrin yalanları ayaq tutacaq, amma yeriyə bilməyəcək. Çünki yalan, böhtan əsasında qurulan kampaniya yaxşı nəticə verə bilməz".

Nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, Azərbaycan müstəqil ölkədir, öz müstəqil siyasətini davam etdirir, həqiqətləri Avropa parlamentarilərinə, ictimaiyyətinə çatdırır. Biz bunu ölkəmizin qüdrəti əsasında edirik. Avropa Şurası, Avropa Şurası Parlament Assambleyası Azərbaycanla əlaqə qurmaqda daha çox maraqlıdır, nəinki Azərbaycan bu təşkilatlarla. Parlamentarilər bunu daha yaxşı başa düşür və bilirlər ki, Şərq və Qərb fəlsəfəsini özündə birləşdirən Azərbaycansız AŞPA yaşaya bilməz.

Qətnamədə qaçqın və məcburi köçkünlərə dair bəndlə bağlı S.Seyidov bildirib ki, artıq hamı işğalçını tanıyır, həqiqətləri bilir. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunduğunu, işğal altında olan torpaqlarımızda ermənilərin törətdiklərini hamı bilir. Ancaq AŞPA-da mövcud olan üzdəniraq qruplar bütün dünyaya bəlli olan həqiqətləri belə danmağa hazırdırlar. Onlar hətta qaçqın və köçkünlərlə bağlı həqiqətləri də inkar etməyə hazırdırlar. Bu qruplar ölkəmizdə aparılan iqtisadi islahatları, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı görülən işləri inkar etməyə cəhd edirlər. "Ümumiyyətlə, bu gün AŞPA-da ağa qara demək siyasətinin şahidi olduq", - deyə Azərbaycan nümayəndə heyətinin rəhbəri qeyd edib.

# İtaliya Konstitusiya Məhkəməsi TAP qaz boru kəmərinin Apuliya regionunda tikintisinə icazə verib

İtaliya Konstitusiya Məhkəməsi Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Apuliya vilayətində tikintisinə icazə verib. AZƏRTAC İtaliya KİV-lərinə istinadla xəbər verir ki, məhkəmə tikintinin başlamasına qarşı vilayət administrasiyasının irəli sürdüyü şikayətin təmin olunmayacağını bəyan edib.

Ötən gün TAP-ın kommunikasiya rəhbəri Lisa Givert AZƏRTAC-a açıqlamasında demişdi ki, TAP mərkəzi və yerli hakimiyyət orqanları ilə sıx əməkdaşlıq edir və yenidən İtaliyada tikinti işlərinə başlamağa hazırlaşır. Bu işlərə giriş yolunun inşası və mikrotunelin tikintisi üçün xəndəyin qazılması daxildir. Həmçinin Faza-1 çərçivəsində dəniz hissəsi üzrə ətraf mühitə təsirlərin qiymətləndirilməsi (ƏMTQ) üzrə icazələr qüvvəyə mindikdən sonra bu məqsədlə oktyabrın sonunda yoxlamaların aparılması nəzərdə tutulur. Biz layihə üzrə qrafikə sadiq qalırıq. TAP 2020-ci ildə "Şahdəniz" üzrə ilk qazı tədarük etməyə hazırlıq istiqamətində öz fəaliyyətini davam etdirir.

# Azərbaycan və Ukrayna əczaçıları arasında Memorandum imzalanıb

MDB məkanında ölkəmizin əsas strateji müttəfiqlərindən olan Ukrayna Respublikası ilə əlaqələr möhkəmlənir və genişlənir. Digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də iki ölkə arasında əməkdaşlıq əlaqələri qurulur. AZƏRTAC xəbər verir ki, aparılan danışıqlar nəticəsində Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi ilə Ukrayna Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi arasında Memorandum imzalanıb. İki ölkənin əczaçılıq sektorunda əlaqələr bundan sonra daha da yaxşılaşacaq və səmərəli inkişaf edəcək. Xatırladırıq ki, bundan əvvəl Belarus və Qazaxıstanın müvafiq qurumları ilə də əməkdaşlıq barədə razılaşma əldə olunub.



# Ali Baş Komandan ərazi bütövlüyümüzün qarantıdır

## *İlham Əliyev: "Ermənistan danışıqları pozmağa çalışsa da, buna nail ola bilmədi"*



***Bu gün Dağlıq Qarabağ münaqişəsinin həll prosesinin dinc yolla həlli Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, həm də bu istiqamətdə zəruri addımlar atılmaqdadır. İşğalçı Ermənistan müəyyən manеələr yaratmağa çalışsa da, dünya miqyasında danışıqlır prosesinə qayıtması üçün Ermənistana ciddi təzyiqlər edildiyi müşahidə edilməkdədir. Sözsüz ki, bu, Azərbaycan diplomatiyasının uğurlu gedişləri nəticəsində əldə olunur.***

### Azərbaycan Prezidentindən Ermənistana sərt mesaj

Bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəyişməz mövqedə qaldığını bildirib. O, vurğulayıb ki, Azərbaycan öz mövqeyini birbaşa xarici tərəfdaşlara çatdırır: "Rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə etdiyim çıxışlar Azərbaycanın siyasətini əks etdirir, əldə etdiyimiz uğurları, eyni zamanda, Dağlıq Qarabağ problemini də bir daha dünya ictimaiyyətinə çatdırır. Ölkəmizə isə bu il ondan çox dövlət və hökumət başçısı gəlmişdir. İlin sonuna qədər yenə də səfərlər gözlənilir. Yəni bizim beynəlxalq əlaqələrimiz çoxşaxəlidir. Xarici siyasətimiz milli maraqlarımızı təmin edir və beynəlxalq arenada Azərbaycan, bir daha demək istəyirəm ki, böyük hörmətə və çox müsbət reputasiyaya malik olan bir ölkədir".

Müşavirədə Azərbaycan Prezidenti son vaxtlar Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı danışıqlarda heç bir irəliləyişin olmadığını da deyib: "Ermənistan çalışırdı və hesab edirdi buna nail olacaq ki, danışıqlar pozulsun. Yəni müxtəlif bəhanələrlə bizi ittiham etməklə, çalışırdı ki, danışıqlar bərpa edilməsin və buna nail olmaq üçün bir neçə şərt qoymuşdu. Əlbəttə, mən birbaşdan bəyan etmişdim ki, heç bir şərt qəbul edilməyəcək. Onlar bu şərtləri, irəli sürərkən özlərini çox axmaq vəziyyətdə qoyurlar və məcbur olub bu siyasətdən əl çəkməli olacaqlar. Həyat və reallıq bir daha onu göstərir ki, həmişə olduğu kimi, bizim təhlilimiz və siyasətimiz tam reallığı əks etdirir".

Azərbaycan Prezidenti qeyd edib ki, bu gün danışıqlar prosesi heç bir şərt qəbul olunmadan bərpa edilir: "Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında biabır etdi və danışıqların bərpası bizə edilən hər hansı bir minnət deyil. Onların isterik bəyanatları, başqa ölkələrə qorxu ilə dolu müraciətləri, əslində, açıq etirafdır ki, döyüşdə onların bizim qarşımızda duruş gətirməsi qeyri-mümkündür. Aprel hadisələri bunu göstərdi. Təmas xəttindəki vəziyyət onu göstərir ki, bu gün biz təmas xəttində hakim mövqelərə tam sahibik. Əlbəttə, Ermənistan daha çox maraqlı olmalıdır ki, danışıqlar bərpa edilsin. Çünki əks-təqdirdə onları çox acı nəticələr gözləyir. Məsələ ilə məşğul olan vasitəçilər çalışırlar ki, danışıqlar prosesi bərpa edilsin. Biz də, əlbəttə ki, bunu dəstəkləyirik. Ona görə, bir daha demək istəyirəm ki, bu il də bu istiqamətdə real nəticə əldə olunmasa da Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında aciz, gücsüz, asılı ölkə kimi təqdim etmişdir".

### Azərbaycanın xarici siyasətdə prinsipial mövqeyi

Qeyd edək ki, Ermənistanın qoşunların təmas xəttində vaxtaşırı təxribatlar törətməsi də, elə bu düşmən ölkənin gücsüz olduğunu təsdiqləyən amildir. Həmçinin, artıq Ermənistan ictimaiyyəti də başa düşməlidir ki, Azərbaycan 90-cı illərin əvvəllərində olduğu kimi, zəif dövlət deyil və istənilən təxribata sarsıdıcı cavab verməyə qadir ordusu var.

Ermənistan rəhbərliyi artıq çıxılmaz vəziyyətə düşdüyünü anlayır, cəbhə xəttində növbəti təxribat törətməklə və vəziyyəti gərginləşdirməklə Azərbaycanın diplomatik uğurlarını və beynəlxalq aləmin münaqişənin ədalətli həlli ilə bağlı qəti mövqeyini neytrallaşdırmağa çalışır. Ermənistanın son davranışının arxasında, həmçinin, məhz bu amil də durur.

Dövlət başçımız çıxışlarında dönə-dönə xatırladır ki, Azərbaycanın yeritdiyi həm daxili, həm də xarici siyasətin əsas prioritetləri ölkəmizin dövlət müstəqilliyinin əbədiləşdirilməsi, əhalimizin sosial-rifah halının daha da yaxşılaşdırılması və ərazi bütövlüyümüzün bərpa edilməsidir. Bu barədə söz açan Prezident İlham Əliyev məsələni bir qədər konkretləşdirir: "Xarici siyasətimizin əsas problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir... Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi var. Postsovet məkanında buna oxşar münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamə qəbul etməyib. Ancaq bu məsələ ilə bağlı qəbul olunmuş qətnamələrdə, açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Ermənistan bunu nə qədər təhrif etməyə çalışsa da, mümkün deyil, çünki bu, yazılıb və dərc edilib. Odur ki, siyasi, tarixi, hüquqi əsaslar var, onların hamısı bizim mövqeyimizi dəstəkləyir".

Bu gün, həmçinin, dünya mətbuatında Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunacağı barədə fikirlər səslənməkdədir. Həmin fikirlərin bir mənbəyi Azərbaycanın yeritdiyi uğurlu xarici siyasətdirsə, digər mənbəyi də beynəlxalq aləmdəki əsas söz sahiblərinin Azərbaycan həqiqətlərini olduğu kimi, qəbul etməyə başlamalarıdır. Yəni hər iki mənbə bizim xarici siyasət kursumuzun ən incə detallarına qədər dəqiqliklə işlənildiyini göstərir. Bu isə qarşıda daha böyük uğurlarımızın olduğundan xəbər verir.

### Məhz buna görə də Azərbaycan ona xor baxanlar üçün cəhənnəmdir!

Çünki bu gün canını bu torpaqlar uğrunda fəda edən igid balalarımız sabah həmin faciələrin yenidən yaşanmaması üçün canlarından keçirlər. Ancaq özlərini "zavallı" kimi aparan tülkü qədər bic və xain olan ermənilər bilməlidirlər ki, Azərbaycana xor baxanlar üçün son mənzil məzarlıq və cəhənnəmdir!

**RƏFİQƏ HÜSEYNOVA**

# Türkiyənin BİLGESAM Mərkəzi Əli Həsənovun Xocalı soyqırımından bəhs edən monoqrafiyasını saytında yerləşdirib


BİLGESAM | WISE MEN CENTER FOR STRATEGIC STUDIES

KAFKASYA

BİLGESAM Analiz / Kafkasya No: 1373 22 Eylül 2017

Hocalı Soykırımı: Nedenleri, Sonuçları ve Uluslararası Arenada Tanınması

Prof. Dr. Ali HASANOV

Tarihî belgeler, Azerbaycan'ın Karabağ bölgesinin stratejik açıdan büyük önem taşıyan dağlık kesimlerine İran ve Türkiye'den kalabalık gruplar halinde Ermeni nüfusun göç ettirilmesi sürecinin 19. yüzyıl başlarından itibaren başladığını göstermektedir. Söz konusu bölgede Ermeni nüfusun yapay bir şekilde arttırılması, Ermenilerin 20. yüzyıl başlarından itibaren Azerbaycan'a karşı toprak iddialarında bulunmasına ve saldırgan bir

gezur ve Cebrail kazalarında, İrevan ve Gence Guberniyalarında (vilayetlerinde) Azerbaycanlıların meskûn bulunduğu 200'den fazla yer-


BİLGESAM | WISE MEN CENTER FOR STRATEGIC STUDIES

HOME PAGE BILGESAM BOARD OF WISE MEN EVENTS PUBLICATIONS WISE STRATEGY STRATEJİST

Khojaly genocide: Causes, consequences and international recognition

Prof. Dr. Ali HASANOV
11 October 2017

A- A A+ CLICK HERE TO DOWNLOAD

In the late 1980s, with the help of their patrons in the near and far abroad, the Armenians again took advantage of the situation to realize their "Great Armenia" idea and laid territorial claims to the Nagorno-Karabakh region of Azerbaijan. Each time territorial claims to Nagorno-Karabakh were put forward from the outside, incited by the Armenian propaganda and pressure.

When the events of 1988 just started, in an attempt to aggravate the situation and mislead the public opinion, the Armenian politicians and their patrons started to organize strikes and rallies and halted the activity of enterprises in Khankandi and Yerevan in accordance with a long-term deliberate plan to annex Nagorno-Karabakh to Armenia under the pretext of economic backwardness of the region.

***İstanbulda fəaliyyət göstərən BİLGESAM Araşdırmalar Mərkəzi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması" adlı elmi monoqrafiyasının türk və ingilis dillərindəki elektron versiyalarını öz saytında yerləşdirib.***

AZƏRTAC xəbər verir ki, BİLGESAM (Müdrik İnsanlar Strateji Araşdırmalar Mərkəzi) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Türkiyənin və dünyanın aparıcı strateji araşdırmalar mərkəzlərindən biridir. Mərkəz zaman-zaman tədqiqatlarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələrinə yer verir.

Türkiyədə fəaliyyət göstərən diplomatik korpus, eləcə də nüfuzlu ali məktəblər və strateji araşdırma mərkəzləri elmi ictimaiyyət arasında böyük nüfuza malik olan BİLGESAM ilə əməkdaşlıq edir və bu qurumun nəşrlərinə abunədir.

Qeyd edək ki, "Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması" monoqrafiyasında XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilərin yaranmış vəziyyətdən istifadə edərək yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını davam etdirmək üçün yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə əsassız ərazi iddiaları irəli sürmələri nəticəsində ölkəmizə qarşı həyata keçirdikləri işğalçılıq siyasətinin ağır nəticələrindən bəhs olunur. Təcavüzkar Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ağır terror aktları barədə müfəssəl məlumat verən müəllif yazır: "XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı indiyədək bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Xocalı faciəsi tarixi yaddaşlardan heç vaxt silinməyən Xatın, Liditsa, Oradur, Holokost, Sonqmi, Ruanda və Srebrenitsa kimi dəhşətli faciələrdən heç də fərqlənmir. Adıçəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və bütün dünyada geniş əks-səda doğurmuşdur".

Səkkiz dildə nəşr olunan monoqrafiyada, həmçinin Xocalı şəhərinin coğrafi quruluşu, onun strateji əhəmiyyəti, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər barədə məlumat verilir. Monoqrafiya Xocalı soyqırımı, ümumiyyətlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi ilə məşğul olan tədqiqatçılar, xarici siyasət məsələləri ilə məşğul olan mütəxəssislər, həmçinin geniş oxucu auditoriyası üçün dəyərli mənbədir. Monoqrafiyanın yaxın aylarda BİLGESAM-ın aylıq nəşri olan, regional və qlobal xarici və təhlükəsizlik məsələləri üzrə siyasi təhlillərə yer verən "Stratejist" jurnalında da nəşr edilməsi nəzərdə tutulur.

# Səbaildə görkəmli alim Aida İmanquliyevanın xatirəsi yad edilmişdir



Səbail rayonundakı 132-134 №-li Təhsil Kompleksində görkəmli şərqşünas-alim, filologiya elmləri doktoru, elm təşkilatçısı, ictimai xadim, professor Aida xanım İmanquliyevanın anadan olmasının 78-ci ildönümünə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib.

Səbail rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, Milli Məclisin üzvləri, qonaqlar, müəllim və şagirdlər, ilk öncə,



kompleksin Tarix Muzeyində 1957-ci ildə bu təhsil müəssisəsini qızıl medalla bitirmiş Aida xanım İmanquliyevaya həsr olunan guşəyə baxıblar.

132-134 №-li Təhsil Kompleksinin direktoru, əməkdar müəllim Sara Xanlarova məktəbin məzunu, görkəmli şərqşünas alim və pedaqoq, professor Aida xanım İmanquliyevanın şərəfli ömür yolundan, cəmiyyətə, elmə, təhsilə və mədəniyyətə verdiyi əvəzsiz töhfələrdən danışıb. Qeyd olunub ki, məktəbdə 5 ildir ki, həyata keçirilən "Unudulmaz məzunlar" layihəsi çərçivəsində ilk tədbir də, məhz bu gün doğum gününü qeyd etdiyimiz Aida xanım İmanquliyevaya həsr olunub. Professor Aida İmanquliyevanın nəciblik, xeyirxahlıq və saflıq mücəssəməsi olduğunu söyləyən Sara Xanlarova alimin əziz xatirəsinin könüllərdə daim yaşayacağını bildirib. Tədbirdə Təhsil Kompleksinin şagidləri, gənc və tanınmış aktyorlar tərəfindən Aida xanım İmanquliyevanın məktəb və gənclik illərinə həsr olunan şəhnəciklər göstərilib, məktəb, tələbəlik, gənclik, elmi-pedaqoji fəaliyyətini əks etdirən video-slaydlar və görkəmli alimin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Görüşdə çıxış edən akademik Vasim Məmmədəliyev, A.İmanquliyevanın tələbəsi olmuş Gülnarə Məmmədova Aida xanım barədə xatirələrini danışıblar.

Tədbirdə Səbail rayon icra hakimiyyətinin başçısı Eldar Əzizov çıxış edərək professor Aida xanım İmanquliyevanın Azərbaycanın elm və təhsil tarixindəki müstəsna rolundan danışıb, onun elmi irsinin, əsərlərinin əhəmiyyətini diqqətə çatdırıb. Vurğulanıb ki, Şərq-Qərb mədəni əlaqələrinin inkişafında professor Aida İmanquliyevanın tədqiqatları, xüsusilə, böyük aktuallıq kəsb edib. Azərbaycan qadınına xas olan ən gözəl, ən nəcib xüsusiyyətləri özündə cəmləşdirən Aida xanım İmanquliyevanın vətənə yüksək intellektual səviyyəli, dərin mənəvi keyfiyyətləri ilə nümunə olan övladlar bəxş etdiyini bildirən E.Əzizov alimin əziz xatirəsinin könüllərdə daim yaşayacağını söyləyib.

Tədbirdə qonaqlara Təhsil Kompleksi tərəfindən çap olunmuş Aida xanım İmanquliyevanın məktəb illəri, geniş və səmərəli elmi-pedaqoji fəaliyyəti, nəsillərə nümunə olan gözəl ailə mühiti barədə məlumatlar və xatirələr toplanmış "Unudulmaz məzun - Aida İmanquliyeva" kitabı təqdim olunubdur.

**R.HÜSEYNOVA**

# AŞPA-nın komitə iclasında Milli Məclisin deputatının məruzəsi yüksək qiymətləndirilib



Avropa Şurası Parlament Assambleyasının payız sessiyası çərçivəsində təşkilatın sosial işlər, sağlamlıq və davamlı inkişaf komitəsinin iclasında AŞPA-dakı nümayəndə heyətimizin üzvü, Milli Məclisin deputatı Sevinc Fətəliyevanın "Silahlı münaqişələrin qurbanı olan uşaqların müdafiəsi" adlı məruzəsi müzakirə olunub. Aktuallığı ilə diqqəti cəlb edən bu məruzə komitə üzvləri tərəfindən dəstəklənib və yüksək qiymətləndirilib. AŞPA-da hökm sürən hazırkı böhran zamanı azərbaycanlı deputatın məruzəsinin yüksək qiymətləndirilməsi təqdirəlayiqdir. Sevinc Fətəliyevanın hazırladığı məruzədə dünyada uşaqların valideyn himayəsindən məhrum olmalarının, zorakılığa məruz qalmalarının, əlil olmalarının yeni fəsadlar yaradacağı və gələcək üçün çox təhlükəli olduğu qeyd edilir. Məruzədə bütün ölkələr mövcud vəziyyətlə bağlı tədbirlər görməyə çağırılır. Qeyd edək ki, Sevinc Fətəliyeva iki il AŞPA-nın sosial işlər, sağlamlıq və davamlı inkişaf komitəsinin uşaqlar üzrə baş məruzəçisi olub. Bu müddət ərzində onun fəaliyyəti müsbət qiymətləndirilib.

# Mixail Myasnikoviç: "Belarus Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verir"

***Belarus Azərbaycan ilə siyasi, iqtisadi, elmi və mədəni əlaqələrin inkişafına xüsusi önəm verir. AZƏRTAC xəbər verir ki, bu fikri Minskdə səfərdə olan Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşündə Belarus Respublika Şurasının sədri Mixail Myasnikoviç bildirib. Belarusla Azərbaycan arasında tarixi dostluq əlaqələrindən söz açan Mixail Myasnikoviç deyib ki, ölkələrimiz dövlət müstəqilliklərini bərpa etdikdən sonra ikitərəfli münasibətlər strateji müttəfiqlik müstəvisinə qədəm qoyub.***



Son illər hər iki ölkənin dövlət başçılarının ikitərəfli rəsmi səfərlərinin qarşılıqlı əlaqələrin inkişafına xüsusi təkan verdiyini vurğulayan Belarus Respublika Şurasının sədri bildirib ki, hazırda Belarusda Azərbaycanın 58 şirkəti fəaliyyət göstərir. Azərbaycanda isə Belarusun 70-ə yaxın müxtəlif fəaliyyətli şirkəti mövcuddur. "Düşünürəm ki, hər iki ölkə investisiya qoyuluşunu artıra bilər. Parlamentlərimiz bu istiqamətdə fəaliyyətlərini gücləndirə, müxtəlif təkliflərlə çıxış edə bilərlər", - deyə o qeyd edib.

Mixail Myasnikoviç bildirib ki, son 10 ildə Belarus Gəncə avtomobil zavodunda traktor, yük avtomobili yığılması və kommunal texniki avadanlıqlar üçün Azərbaycana 400 milyon dollar məbləğində məhsul ixrac edib. Zavodda BELARUS markalı təxminən 10 min traktor və 4 minə yaxın yük avtomobili istehsal edilib. Sədr təklif edib ki, Azərbaycanın və Belarusun birgə istehsalı olan məhsullar İran, Türkiyə bazarlarına çıxarılsın. Azərbaycan və Belarus əməkdaşlığı strateji xarakter daşıyır.

Milli Məclisin sədri Oqtay Əsədov deyib ki, Azərbaycan və Belarus arasında istər siyasi, istər iqtisadi sahədə əlaqələr inkişaf edir, heç bir fikir ayrılığı yoxdur.

"Azərbaycan və Belarus prezidentləri arasında səmimi dostluq münasibətləri var. Biz həmişə dost kimi bir-birimizi dəstəkləmişik. Beynəlxalq təşkilatlarda hər iki ölkənin sıx əməkdaşlığı mövcuddur. Düşünürəm ki, bu əməkdaşlıq daha da inkişaf və yeni formatda davam etdirilməlidir", - deyə Oqtay Əsədov bildirib. Milli Məclisin sədri qeyd edib ki, regional parlament qurumları yaradılmalıdır və bu istiqamətdə Azərbaycan və Belarus parlamentləri birgə çalışa bilərlər.

Oqtay Əsədov vurğulayıb ki, Azərbaycanla Belarus arasında hərbi-texniki əməkdaşlıq da yüksək səviyyədədir. Bu sahədə əməkdaşlıq daha da inkişaf etdirilir.

Belarusun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini vurğulayan Milli Məclisin sədri bildirib ki, 2016-cı ilin aprel ayında cəbhə xəttində baş vermiş hadisə zamanı Belarus Prezidenti Aleksandr Lukaşenko dərhal bəyanat verərək Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

Görüşdə Milli Məclisin komitə sədrləri Ziyad Səmədzadə, Fuad Muradov, deputatlardan Xanlar Fətiyev, Ülviyyə Ağayeva, Azərbaycanın Belarusdakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov və digərləri iştirak ediblər.

***Emil Hüseynli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Minsk***

# İsrail portalında fransalı blogerin Azərbaycandakı yəhudi icması haqqında məqaləsi dərc olunub



JSSNEWS ? RÉSEAUX SOCIAUX CONTACT PUBLICITÉ

Nikki Haley
Les États-Unis continueront à s'opposer aux actions biaisées de l'ONU contre Israël !

JSS NEWS
EDITION DU MERCREDI 11 OCTOBRE 2017

Gérard Collomb
Il faut tout mettre en œuvre pour retrouver les agresseurs de la famille juive de Livry-Gargan

ACCUEIL | ISRAEL-TERRITOIRES DISPUTÉS | SCOOP JSS | OCCIDENT | ORIENT | ELECTIONS

Des offres exceptionnelles
à l'occasion du lancement du troisième immeuble
Pour plus d'informations

Azerbaïdjan: un pays musulman où les juifs célèbrent, en toute sécurité, la fête de Souccot !

Publié le : 10 octobre 2017

L'Azerbaïdjan, pays du Caucase situé aux frontières de la Russie, de l'Arménie, de la Géorgie et de l'Iran, est un pays où 97% de la population est musulmane. Indépendant depuis 25 ans et aujourd'hui en plein essors, le pays, dirigé par Ilham Aliev, offre une totale liberté de culte aux minorités.

A Bakou, capitale ultra-moderne où l'architecture nouvelle de style austro-hongrois se marie parfaitement avec des gratte-ciel qui n'ont rien à envier à ceux de Tel-Aviv, les azéris vivent heureux. Et en totale sécurité.

Par de police ou d'armée dans les rues. Pas d'agents de la pensée. Et des lieux de cultes ouverts à tous – et ou chacun est libre de se rendre (ou pas).

GIVAT SHMUEL
Un magnifique projet destiné aux familles

amazonPrime
Deals and Exclusives to members
Try Prime for Free »

Derniers articles

Ötən həftə Azərbaycanda səfərdə olan fransalı jurnalist-bloger Conatan-Simon Sellemin İsrailin "JSSnews" portalında "Azərbaycan - yəhudilərin Sukkot bayramını tam təhlükəsiz şəraitdə qeyd etdikləri müsəlman ölkəsi!" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC yəhudilərin Azərbaycanda mövcudluğunun tarixindən, ölkədəki multikultural mühitdən və ibadət azadlığından, Azərbaycan-İsrail münasibətlərindən bəhs olunan məqalənin xülasəsini təqdim edir.

Müəllif qeyd edir ki, əhalisinin 97 faizinin müsəlmanlardan ibarət olduğu Azərbaycanda multikultural mühit hökm sürür və bütün dinlərin nümayəndələri, o cümlədən yəhudilər öz ibadətlərini sərbəst şəkildə və təhlükəsiz şəraitdə yerinə yetirirlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən Azərbaycanda insanlar xoşbəxt yaşayırlar. Burada asayiş tam təmin olunub. Ölkədə mövcud olan yəhudi icmasının tarixinə nəzər salan Conatan-Simon Sellem bildirir ki, Azərbaycanda yəhudilər təkcə ultra-müasir Bakıda deyil, həm də paytaxtdan 170 kilometr şimalda yerləşən Quba rayonunda yığcam yaşayırlar.

ABŞ-ın Demokratiya və İnsan Hüquqları Bürosunun 2005-ci ildə açıqladığı antisemitizm hesabatına diqqət çəkən fransalı bloger yazır ki, bu sənəddə də Azərbaycanda yəhudilərə qarşı heç zaman ayrı-seçkilik halları olmadığı qeyd edilir. Azərbaycandakı yerli yəhudi icması da ölkədə onlarla bağlı heç bir problemin olmadığını bildirib.

Müəllif vurğulayır ki, Azərbaycanda hökm sürən tolerantlıq mühiti ölkədə aparılan siyasət nəticəsində daha da möhkəmlənib. Azərbaycanda yəhudilərə olan tolerant münasibət Qərbi Avropa ölkələrində çox nadir hallarda müşahidə edilir. Hətta Azərbaycanın Albert Aqarunov və Boris Vannikov kimi yəhudi milli qəhrəmanları da var. Amma Azərbaycanda parlayan yalnız generallar və əsgərlər olmayıb. Mədəniyyət xadimləri Ella Leya, Lala Hasanova, Lev Nusinbaum, Yaqutiv Mişiyev, Sarit Haddad, qrossmeyster Harri Kasparov, memar Mişa Blak və rejissor Yuri Qusman və başqaları Azərbaycandakı yəhudi icmasının nümayəndələridirlər. Azərbaycanda yəhudilərin öz milli və dini bayramlarını tam təhlükəsiz şəraitdə qeyd etdiklərini yazan jurnalist oxucuların diqqətinə çatdırır ki, oktyabr yəhudi bayramlarının bol olduğu aydır. Ona görə də indi Bakıdakı Yəhudi Mədəniyyət Mərkəzində izdiham var, burada uşaqlar və qadınlar üçün fəaliyyət sahələri yaradılıb. Azərbaycanda dövlət qeydiyyatından keçən bir neçə yəhudi icmasının olduğunu bildirən Conatan-Simon Sellem əlavə edir ki, ölkədə paytaxt Bakıdakı beş icmadan başqa, Qubada, Sumqayıtda və Oğuzda da belə icmalar mövcuddur. İsrail-Azərbaycan münasibətlərinə toxunan müəllif yazır ki, bu ölkələr arasında diplomatik əlaqələr 1992-ci ildə qurulub. 1993-cü ildə Bakıda İsrail səfirliyi, 2008-ci ildə isə İsraildə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb. İsraildə azərbaycanlı, Azərbaycanda isə yəhudi deputatlar fəaliyyət göstərirlər. Ölkələr arasında ticarət dövriyyəsi 2009-cu ildən bəri xeyli artıb və bu, Bakı ilə Təl-Əviv arasında birbaşa hava əlaqəsinin yaradılmasına gətirib çıxarıb. Conatan-Simon Sellem məqaləsini bu fikirlərlə bitirir: "İsrail vətəndaşlarının Parisə gələrkən tanınmamaq üçün ingilis dilində danışmağı üstün tutduqlarını biləndə, öz-özünə deyirsən ki, Bakıya gedib orada bir həftə qalmağa dəyər".

# YAP Qaradağ rayon təşkilatının YAP-ın 25 illiyi ilə bağlı tədbirləri davam edir

*Rayon təşkilatında "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" movzusunda konfrans keçirilib*

Dünən YAP Qaradağ rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi münasibətilə Sahil qəsəbəsi 16 saylı Bakı Peşə Liseyinin akt zalında "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda konfrans keçirib. Rayon təşkilatı şurasının üzvlərinin, ərazi ilk partiya təşkilatlarının və rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbiri Dəniz Nəqliyyatı Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Mərkəzinin direktoru Şakir Hüseynov açaraq, Yeni Azərbaycan Partiyasının 25 illik fəaliyyətini zəfər yolu adlandırıb.





Tədbirdə YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov partiyanın keçdiyi tarixi yoldan danışıb: "Ulu Öndərimiz Heydər Əliyevin zəkasının məhsulu olan Yeni Azərbaycan Partiyası 25 ildir ki, inkişaf yolumuzu mayak kimi istiqamətləndirməkdədir. YAP tarixi zərurətdən yaranaraq, qısa zaman kəsiyində ümumxalq partiyaya çevrildi. Yarandığı dövrdən bu günə qədər Yeni Azərbaycan Partiyası yalnız Azərbaycanın inkişafı naminə çalışdı".

Tədbirdə çıxış edən YAP Qaradağ rayon təşkilatı idarə heyətinin üzvü İmran Şıxəliyev, 253 saylı tam orta məktəbin direktoru Rafiq Şaxverdiyev, 319 saylı tam orta məktəbin tarix müəllimi Nuranə Vəliyeva, Dəniz Nəqliyyatı Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Mərkəzinin müəllimi Məlahət Nağıyeva, Dəniz Nəqliyyatı Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Mərkəzinin 3-cü kurs tələbəsi Xalidə Məmmədova partiyanın yaranma tarixinə nəzər salaraq, o dövrün çətinliklərindən bəhs ediblər. Qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyev yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin, xalqımızın həyatını kökündən dəyişməklə yanaşı, Azərbaycanın həyatında yeni mərhələnin əsasını qoydu və 25 il ərzində siyasi mübarizələrlə dolu şərəfli bir yol keçdi.

**R.KAMALQIZI**

# Çerniqovda Lütfizadənin xatirəsi yad edilib



Bakı Slavyan Universitetinin Çerniqov Milli Texnologiya Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Tədris-Mədəniyyət Mərkəzi adıçəkilən universitetin Maliyyə-iqtisad fakültəsinin iqtisadiyyatda informasiya sistemləri kafedrası ilə birgə dünya şöhrətli görkəmli alim, qeyri-səlis məntiq və kibernetika nəzəriyyəsinin banisi Lütfi Zadənin xatirsənə həsr edilmiş tədbir keçirib.

Tədbirdə mərkəzin direktoru, ÇMTU-nun Maliyə-iqtisad fakültəsinin dekanı, professor Marina Yevgeniyevna Yurçenko və iqtisadiyyatda informasiya sistemləri kafedrasının müdiri, professor Andrey Nikolayeviç Akimenko çıxış edərək, alimin dünya elminə verdiyi töhfələrdən danışıblar.

İqtisadiyyatda informasiya sistemləri kafedrasının dosenti Natalya Vladimirovna Şaxovnina Azərbaycan-Ukrayna mənşəli görkəmli alimin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Tədbirdə Lütfi Zadənin müasir idarəetmə elminin əsasını təşkil edən və ən müasir diskret və rəqəmsal sistemlərin yaradılması texnologiyasına ciddi təsir edən fundamental nəzəriyyəsinin əsas nailiyyətləri təqdim edilib. Mərasimdə Çerniqov Milli Texnologiya Universitetinin birinci, ikinci, üçüncü kurs tələbələri və magistrantlar iştirak ediblər.

**Z.BAYRAMOVA**

# YAP Binəqədi rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə tədbir keçirilib



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə Binəqədi rayonu, 9-cu mikrorayon, Mir Cəlal küçəsi, 143 ünvanında yerləşən ərazi ilk partiya təşkilatının təşəbbüsü ilə 144 saylı tam orta məktəbin şagird heyətinin iştirakı ilə Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında görüş keçirilib. Görüşün təşkil edilməsində əsas məqsəd partiyanın yaranmasının 25 illik yubileyi ərəfəsində gənclərə partiyanın fəaliyyəti haqqında ətraflı məlumat verməkdir. Görüşdə iştirak edən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının aparat rəhbəri Sevinc Abdullayeva, baş təlimatçılar Kubra Əliyarlı, Rahil Şükürov və YAP Binəqədi rayon təşkilatı gənclər birliyi sədrinin səlahiyyətlərini icra edən Fəsli Nəbiyev, 144 saylı tam orta məktəbin direktoru Həcər Mahmudova və şagirdlər, ilk öncə, binanın qarşısında ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzdülər.

Daha sonra şagirdlər inzibati bina ilə tanış olmuş, Yeni Azərbaycan Partiyasının fəalları ilə görüşmüş, gənc fəallar üçün binada yaradılmış şəraitlə, onların iş prinsipi ilə bağlı məlumatlandırılmışlar. Bundan sonra görüş konfrans zalında fikir mübadiləsinin aparılması ilə davam etdirilib.

Şagirdlərlə söhət zamanı onlara Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolu haqqında məlumat verilib. Ulu Öndərin azərbaycançılıq ideyalarından bəhs edilərək, şagirdlərə tövsiyələr verilmiş, bu ideyalara-dövlətimizə və dövlətçilik ənənələrimizə sadiqlik aşılanmış, əsl vətəndaş kimi hər zaman xalqımıza vicdanla xidmət etməyin vacibliyi diqqətə çatdırılmışdır.

**ZÜMRÜD**

# AZƏRTAC-ın Baş direktoru "Kazinform"a müsahibə verib




Azərbaycan ilə Qazaxıstanın əməkdaşlığı son vaxtlar daha dinamik xarakter alıb və bu, iki ölkənin informasiya agentlikləri arasında əlaqələrin genişlənməsinə də müsbət təsir göstərir. Bunu Qazaxıstan Beynəlxalq İnformasiya Agentliyinə ("Kazinform") müsahibəsində AZƏRTAC-ın Baş direktoru Aslan Aslanov deyib. Müsahibədə AZƏRTAC-ın xarici informasiya agentlikləri ilə həm ikitərəfli qaydada, həm də beynəlxalq alyanslar çərçivəsində uğurlu əməkdaşlıq əlaqələri qurduğu, indiyədək 45 ölkənin milli informasiya agentlikləri ilə müqavilələr imzaladığı vurğulanıb.

"Kazinform"un müxbirinin suallarını cavablandıran Baş direktor ötən ilin noyabrında Bakıda eyni vaxtda iki böyük tədbirin - Dünya Xəbər Agentliklərinin V Konqresinin və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının keçirildiyini, AZƏRTAC-ın hazırda hər iki quruma sədrlik etdiyini diqqətə çatdırıb. Aslan Aslanov AZƏRTAC-ın fəaliyyətindən, həmçinin "Kazinform"la əməkdaşlığının, qarşılıqlı informasiya mübadiləsinin əhəmiyyətindən söhbət açıb, agentliyin yeni layihələri barədə məlumat verib və müxbirin digər suallarını cavablandırıb.

# AŞPA-nın sessiyasında Azərbaycanla bağlı iki qətnamə qəbul edilib




Oktyabrın 11-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sessiyasında Azərbaycana dair hesabatlar üzrə iki qətnamə qəbul edilib. AZƏRTAC xəbər verir ki, həmməruzəçilər Stefan Şennakın və Sezar Florin Predanın hazırladıqları "Azərbaycanda demokratik təsisatların fəaliyyəti" hesabatı üzrə qətnamənin lehinə 117 deputat, əleyhinə 18 deputat səs verib.

Belçikalı parlamentari Alen Desteksin hazırladığı "Azərbaycanın Avropa Şurasına sədrliyi dövründə insan haqlarına hörmət sahəsində atılan addımlar" adlı hesabat üzrə qətnamə isə 114 səs lehinə, 24 səs əleyhinə olmaqla qəbul edilib. Alen Deteks sessiyada olmadığından onu məruzəçi qismində ukraynalı deputat Olena Sotnik əvəz edib. Məruzəçilər Azərbaycana səfərləri, keçirdikləri görüşlər barədə danışıb, hazırladıqları hesabatların xülasəsini diqqətə çatdırıblar. "Biz səfər zamanı Azərbaycanda bir çox sahələrdə irəliləyişlərin şahidi olduq. Hökumət nümayəndələri ilə əməkdaşlıq edərək müsbət irəliləyişlərə nail olmuşuq", - deyə Stefan Şennak bildirib.

# “Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır”

## *Bu mövzuda “Səs” qəzetinin və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə dəyirmi masa keçirildi*




***Dünən “Səs” qəzetinin redaksiyasında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar olaraq “Səs” qəzetinin və Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə “Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır” mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masada YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu, YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, Musa Quliyev, YAP Qadınlar Şurasının sədri, BSU-nun rektoru Nurlana Əliyeva, YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, eləcə də tələbə-gənclər və ictimaiyyət nümayəndələri iştirak edirdilər.***

Dəyirmi masada Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Yeni Azərbaycan Partiyasının 25 illik şərəfli, qürurverici fəaliyyəti ilə bağlı “SƏS” TV-nin hazırladığı “Xalq və dövlətçilik uğrunda 25 il” filmi nümayiş olundu.

Dəyirmi masanı giriş sözü ilə açan “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyətin şərtləndirdiyi zərurətdən yaranan Yeni Azərbaycan Partiyasının tarixi dövrünə nəzər saldı: “Məlum olduğu kimi, Azərbaycanın çox ağır dövründə 1992-ci il noyabrın 21-i Yeni Azərbaycan Partiyasının təsis olunduğu gündür. 25 il əvvəl Azərbaycanda yaranmış ağır durum yeni siyasi təşkilatın yaranma zərurətini meydan gətirdi. YAP qısa vaxtda ictimai-siyasi proseslərə ciddi təsir etməsi baxımından özünü ifadə edə bilən təşkilata çevrildi. YAP daşıdığı azərbaycançılıq ideyasını cəmiyyətdə təsbit edə bildi və öz üzərinə götürdüyü amalları, ümidləri doğruldaraq Azərbaycan vətəndaşlarının Ulu Öndər Heydər Əliyevdən və Onun yaratdığı partiyadan gözlədikləri nə varsa, hər birini həyata keçirə bildi”.

Bugünkü dəyirmi masa iştirakçılarının əksəriyyətinin həmin dövrün ictimai-siyasi iqlimini görən və bu proseslərdə iştirak edən nümayəndələr olduğunu diqqətə çatdıran B.Quliyev Ulu Öndər Heydər Əliyevin ölkənin çətin anlarında atdığı addımları, qərarları və Yeni Azərbaycan Partiyasının yaradıcısı kimi fəaliyyəti, eləcə də, YAP-ın keçdiyi şərəfli, uğurlu yol ətrafında fikirlərini bölüşməyi bildirdi. Onu da bildirdi ki, bu cür tədbirlərin təşkili respublikamız üçün çox əhəmiyyətlidir. Belə ki, yaşanılmış tarixi illərin gənclərə təqdim olunması vacibdir.

**BƏHRUZ QULİYEV:**

- İstərdim ki, ilk sözü tədbirin təşkilatçılarından və tarixi hadisələrin canlı şahidi olan YAP Səbail rayon təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyevə verək. Şəmsəddin müəllim, o dövrdə baş verən hadisələrin iştirakçısı olmusunuz və istərdik ki, həmin tarixin dönəmlərində baş verən olaylarla bağlı fikirlərinizi və təəssüratlarınızı bizimlə bölüşəsiniz”.

### YENİ AZƏRBAYCAN PARTİYASI AZƏRBAYCAN DÖVLƏTİNİN MÜSTƏQİLLİYİNİN QORUNUB - SAXLANILMASINDA VƏ DÖVLƏTÇİLİYİMİZİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ MÜSTƏSNA XİDMƏTLƏRİ OLAN SİYASİ TƏŞKİLATA ÇEVRİLDİ

**ŞƏMSƏDDİN HACIYEV:**

- Bildiyiniz kimi, bu gün ölkəmizdə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibəti ilə tədbirlər keçirilir. YAP Səbail rayon təşkilatı da, ilk olaraq, “91-lər”lə görüş təşkil etdi. İkinci tədbirimiz isə bugünkü dəyimi masadır ki, “Səs” qəzeti ilə birgə təşkil etmişik. Bu gün nümayiş olunan “Xalq və dövlətçilik uğrunda 25 il” filmi bizim yaddaşımızı bir daha təzələdi. Bu hadisələr göz önümüzdə baş verib və yetişən nəsil, gənclərimiz tarixi dövrü öyrənməli və tədqiq etməli, gələcək nəsillərə öyrətməlidirlər. Filmdə tarixi dövrə nəzər salındı. Amma mən də YAP-ın keçdiyi şərəfli yola nəzər salmaq istərdim. Bildiyiniz kimi, Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə öz təsirini göstərdi. Bu gün bunu araşdırsaq, tədqiq etsək, hər kəsə aydın olar. Bu partiya elə zamanda yarandı ki, həmin dövrdə Azərbaycan ağır duruma düşmüşdü. Ölkə siyasi və iqtisadi böhran keçirirdi. Yeni Azərbaycan Partiyasının yaradılmasını istəyən ziyalılar yaxşı başa düşürdülər ki, hər bir işin başında duran böyük mütəfəkkir, böyük gələcəyə baxan şəxsiyyət olmalıdır və Onun rəhbərliyi ilə xalq ümidlərini reallaşdıra bilsin. Müstəqil Azərbaycan dövlətinin başının üstünü almış təhlükənin aradan qaldırılmasına ümid yalnız Ümummilli Lider Heydər Əliyevə idi. O dövrdə cəmiyyətdə nüfuzu olan ziyalılar, 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Ulu Öndər Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə “91-lər”in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanı yaranmış vəziyyətdə xilas etmək üçün Dahi Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi lazım idi. Bu yolu getmək üçün partiya təşkilatı lazım idi və YAP-ın yaradılması bu zərurətdən yaradıldı. 25 il əvvəl - 1992-ci il noyabrın 21-də Naxçıvanda Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçirilən təsis konfransında YAP-ın yarandığı elan olundu. YAP yaranandan Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan bir təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın başında Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətinin müstəqilliyinin qorunub- saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

Bu gün tam cəsarətlə demək olar ki, Ulu Öndər Heydər Əliyev kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasını Sədri İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar.

Dünyada qlobal maliyyə böhranının getdikcə dərinləşməsi fonunda son illərdə həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə edilmiş, Azərbay-

can modeli dünya ölkələri üçün nümunəyə çevrilmişdir. Bu gün Azərbaycanı bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanıyırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, möhkəm iradəsi və ölkəmizdəki ictimai-siyasi sabitlik sayəsində Azərbaycan hər sahədə inkişaf edir.

Dünyada əlverişsiz iqtisadi proseslərin davam etdiyi, qonşu regionlarda silahlı münaqişələrin və qanlı terror aktlarının baş verdiyi bir dövrdə Azərbaycan Prezidentinin düşünülmüş siyasəti nəticəsində, ölkəmizdə sabitlik qorunub-saxlanılır, iqtisadi islahatlar getdikcə dərinləşir, dövlətimizin gücü və beynəlxalq nüfuzu durmadan artır.

**BƏHRUZ QULİYEV:**

- Eldar müəllim, yaxşı olardı ki, o illərin olaylarına, eləcə də, 1988-ci ildən başlayaraq yaranan xalq hərəkatına, zamanın tələbinə uyğun olaraq Yeni Azərbaycan Partiyasının yaranma tarixinə, xalqın tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışına nəzər salasınız.

## YENİ AZƏRBAYCAN PARTİYASI AZƏRBAYCANIN SİYASİ GƏLƏCƏYİNİN İDEYA BAZASINI ŞƏRTLƏNDİRMİŞ OLDU

**ELDAR İBRAHİMOV:**




- Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmışdır. Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq, ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra müstəqillik əldə etmiş respublikalardan biri kimi Azərbaycanda da müxtəlif siyasi partiyalar və digər qurumlar təşəkkül tapmağa başlamışdı. Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi və mənəvi böhrandan, nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və birbirini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq, təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi və sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları və tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış Lideri və Müdrik Oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Ulu Öndər Heydər Əliyevə müraciət olundu. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Minlərlə insan Dahi Öndər Heydər Əliyevin yanına gedir, Ona müraciət edirdilər ki, hakimiyyətə qayıtsın. Heydər Əliyev kənarda qala bilmədi və insanların bütün ümidlərinin Ona bağlı olduğunu görüb, siyasi meydana gəldi. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda partiyanın təsis konfransı 550 nəfər nümayəndənin iştirakı ilə keçirildi və Ulu Öndər Heydər Əliyev YAP-ın Sədri seçildi.

Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi və dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin ideya bazasını şərtləndirmiş oldu. 1993-cü ilin oktyabr ayının 3-də YAP-ın Sədri Ulu Öndər Heydər Əliyevin Prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu. Ötən əsrin 90-cı illərinin əvvəllərində ictimai-siyasi sabitliyin təmin edilməsi, xaos və anarxiyanın aradan qaldırılması xalqımızın istək və arzuları idi. Heydər Əliyev hakimiyyətə qayıdaraq, bunları həyata keçirdi. Sonrakı mərhələdə ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramanın qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit və azad bazar iqtisadiyyatı formalaşdı. Xalqın rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atıldı. Sonrakı dövrlərdə digər məsələlər - Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyub. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası həmin vəzifələri də yüksək səviyyədə yerinə yetirmək iqtidarındadır. YAP bundan sonra da ölkənin qüdrətinin artması, iqtisadiyyatının yüksəlməsi, insanların rifah halının yaxşılaşması kimi şərəfli bir vəzifəni öz çiyinləri üzərində daşımaq iqtidarında olduğunu bəyan edir. Bunları həyata keçirmək üçün ciddi əsaslar var.

Müasir dövrümüzdə Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyev ideyalarına əsaslanır, Heydər Əliyev şəxsiyyətində əks olunan mənəvi gücü cəmiyyətimizə transfer edir. Yeni Azərbaycan Partiyasının əsas məqsədi Ulu Öndər Heydər Əliyev ideyalarını yaşatmaq, bu ideyalar əsasında Azərbaycan cəmiyyətini kökləyərək, inkişafın əsas istiqamətlərini müəyyənləşdirməkdən ibarət olub. Düşünürəm ki, 25 illk tarixi gedişdə Yeni Azərbaycan Partiyası bu missiyanı layiqincə yerinə yetirib. YAP taleyinə uğurlar yazılmış bir siyasi təşkilatdır. 25 il ərzində Yeni Azərbaycan Partiyasını uğurlar və nailiyyətlər müşayiət edib. Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlar, ümumilikdə ölkənin inkişafında, tərəqqisində özünü təsdiqləyən və əks etdirən uğurlardır. Bu inkişafa və tərəqqiyə Yeni Azərbaycan Partiyasının 700 mindən artıq üzvünün hər biri öz töhfəsini verməkdədir.

*(Ardı var)*

***Nəzakət ƏLƏDDİNQIZI***

# Cocuq Mərcanlıda əsas tikinti işləri başa çatıb

Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 15 iyun tarixli Sərəncamına əsasən, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən aparılan tikinti-bərpa və abadlıq-quruculuq işlərinin növbəti mərhələsi uğurla davam etdirilir.

İnşaat işlərinə 40-a yaxın texnika, 280-dən çox işçi cəlb edilib. Bu mərhələdə 100 fərdi yaşayış evinin, 50 yerlik uşaq bağçasının, tibb məntəqəsi və klub-icma mərkəzi üçün binaların, poçt binasının və digər zəruri infrastruktur obyektlərinin tikintisi aparılır. 17 hektar ərazidə inşa edilən





evlərin 14-ü birotaqlı, 38-i ikiotaqlı, 36-sı üçotaqlı, 12-si dördotaqlıdır. Hər bir ailə üçün 0,10 hektar torpaq sahəsi ayrılıb.

Artıq bütün evlərdə, həmçinin uşaq bağçası və klub-icma mərkəzində işlər başa çatıb. İki ədəd 200 kubmetrlik su anbarı inşa edilib və 2 subartezian quyusu qazılıb. Yol-küçə şəbəkəsinə qum-çınqıl tökülüb. Hazırda tibb məntəqəsində malyar işləri aparılır, inzibati bina və poçt binasının fasadına üzlük vurulur. Qəsəbədaxili elektrik, qaz və su xətlərinin çəkilişi davam etdirilir. Yaxın günlərdə qəsəbədaxili küçələrdə asfalt işlərinə başlanılacaq. Qəsəbədə, həmçinin 1,75 hektarda yaşıllıq salınacaq. İşlər başa çatdıqdan sonra Cocuq Mərcanlı kəndindən olan məcburi köçkünlərin növbəti hissəsi qəsəbəyə köçürüləcək.

# Samir Şərifov Vaşinqtonda Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun illik toplantısında iştirak edəcək

Maliyyə naziri Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun illik toplantısında iştirak edəcək. Maliyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, illik toplantı oktyabrın 11-15-də ABŞ-ın paytaxtı Vaşinqtonda keçiriləcək. Səfər zamanı bir sıra ikitərəfli görüşlərin keçirilməsi də nəzərdə tutulur.

BVF və Dünya Bankına üzv ölkələrin yüksək vəzifəli dövlət və hökumət rəsmiləri, beynəlxalq maliyyə institutları, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirak edəcəyi illik toplantı çərçivəsində dünya iqtisadiyyatının cari vəziyyəti, yoxsulluğun aradan qaldırılması, iqtisadi inkişaf və yardımın effektivliyi daxil olmaqla, qlobal narahatlıq doğuran bir çox məsələlər müzakirə olunacaq.

# Yeni Azərbaycan Partiyası Şuşa rayon təşkilatının V konfransı keçirildi





***Dünən Yeni Azərbaycan Partiyası Şuşa rayon təşkilatının V konfransı keçirildi. Konfrans işinə başlamazdan əvvəl Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra Yeni Azərbaycan Partiyasının keçdiyi 25 illik tarixi yola həsr olunmuş film nümayiş olundu.***

Konfransı giriş sözü ilə açan Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev hesabat dövründə təşkilatın gördüyü işlərə dair məruzə ilə çıxış etdi. O, çıxışında Azərbaycanın inkişafına verdiyi töhfələrdən danışaraq, ötən 25 il ərzində, YAP-ın böyük inkişaf yolu keçdiyini və bu gün Yeni Azərbaycan Partiyasının ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə inkişafının yeni mərhələsini yaşadığını bildirdi: "YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycan siyasi palitrasının ən güclü və nüfuzlu siyasi partiyasıdır".

Rayon təşkilatının sədri hesabat dövründə təşkilatın sıralarının xeyli genişləndiyini bildirdi. Ölkədə həyata keçirilən uğurlu siyasətdən geniş bəhs edən məruzəçi bu nailiyyətlərdə YAP fəallarının da payı olduğunu nəzərə çatdırdı.

Təşkilatın nəzarət-təftiş qrupunun hesabat məruzəsində rayon təşkilatının maliyyə işləri barəsində konfrans iştirakçılarına geniş məlumat verildi.

Hesabat məruzəsi ətrafında çıxış edən təşkilatın üzvləri Yeni Azərbaycan Partiyasının ölkəmizdə elm və təhsilə, səhiyyəyə, idman və turizmin inkişafına verdiyi tövsiyələrdən geniş bəhs edərək, YAP Şuşa rayon təşkilatının hesabat dövründəki fəaliyyətini qənaətbəxş hesab etdilər.

Konfransda çıxış edən YAP Siyasi Şurasının üzvü, Milli Məclisin komitə sədri Hadi Rəcəbli partiyanın keçdiyi şərəfli tarixi yola nəzər saldı: "YAP Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır. 700 mindən çox üzvü özündə ehtiva edən partiyamız ötən 25 ildə çətin və şərəfli yol keçib. Müstəqilliyimizin ilk illərində tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası qısa zamanda iqtidar partiyasına çevrildi. Bu, bir faktdır ki, ölkəmizdə Yeni Azərbaycan Partiyasının yaradılması mühüm ictimai-siyasi hadisə kimi tarixə düşdü. YAP-ın yaranma zərurəti həm də ağır vəziyyətdə yaşayan xalqın sosial sifarişi kimi şərəfli tariximizə yazıldı".

O, çıxışının sonunda bildirdi ki, Yeni Azərbaycan Partiyası hər zaman Azərbaycan dövlətçiliyinə, Ümummilli Liderimiz, partiyanın yaradıcısı Ulu Öndər Heydər Əliyevə, Onun siyasi ideyalarına sadiq olmuşdur. Yarandığı zamandan Yeni Azərbaycan Partiyası cəmiyyətimizdə sülh, əmin-amanlıq, milli həmrəylik və demokratiyanın bərqərar edilməsini, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsini, hüquqi-demokratik dövlətin yaranmasını, geniş demokratik islahatların həyata keçirilməsini qarşısına məqsəd kimi qoyub və bu missiyanı ləyaqətlə həyata keçirir.

Milli Məclisin deputatı Elman Məmmədov və Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri, Şuşa rayon icra hakimiyyətinin başçısı Bayram Səfərov və başqaları çıxışlarında Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi siyasətdən və qarşıda duran mühüm vəzifələrdən geniş bəhs etdilər.

Çıxışlardan sonra təşkilati məsələlərə baxıldı. YAP Şuşa rayon təşkilatının 17 nəfərdən ibarət şurası, 9 nəfər tərkibdə idarə heyəti və 3 nəfərdən ibarət nəzarət-təftiş qrupu seçildi. Təvəkkül Əliyev yenidən YAP Şuşa rayon təşkilatının sədri seçildi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni zəfərlərə doğru inamlı addımlarla

## *YAP Goranboy rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi ilə bağlı ilk partiya təşkilatlarında silsilə tədbirlər keçirməkdə davam edir*

***YAP Goranboy rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi ilə bağlı ilk partiya təşkilatlarında silsilə tədbirlər keçirməkdə davam edir. Rayon təşkilatından "SƏS"ə daxil olan məlumata görə, Qaradağlı kənd ərazi və Şadılı kənd ərazi ilk partiya təşkilatlarında Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi coşquyla qeyd olunub.***





Tədbiri giriş sözü ilə açan YAP rayon təşkilatının sədr müavini Əzra Həşimova Yeni Azərbaycan Partiyasının yaranma tarixindən geniş danışaraq, vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi əlamətdar bir dövrə təsadüf edir. Belə ki, oktyabrın 18-də müstəqilliyimizin 26-cı ildönümünü qeyd edəcəyik və 25 il bundan əvvəl - 1992-ci il noyabrın 21-də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda müstəqil Azərbaycanın həyatında mühüm rol oynamış Yeni Azərbaycan Partiyası təsis olunub. "Ötən dövr ərzində Yeni Azərbaycan Partiyası çox çətin, lakin şərəfli bir yol keçib"-deyə qeyd edən Ə.Həşimova həmçinin, bildirib ki, xalqımızın və dövlətimizin taleyinin həll olunduğu bir zamanda, zərurətdən yaranan Yeni Azərbaycan Partiyası müstəqillik tariximizdə yeni mərhələlərin əsasını qoyub və onu bugünkü səviyyəyə çatdırıb: "Güclü siyasi bazaya malik olan beynəlxalq aləmdə nüfuzlu siyasi qüvvə kimi tanınan Yeni Azərbaycan Partiyası dünyanın siyasi arenasında xüsusi yeri olan Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin qorunub-saxlanılmasında və möhkəmlənməsində xüsusi rolu olub. Bu gün bu siyasət partiyamızın Sədri, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilir".

Ə.Həşimova sonda vurğulayıb ki, təməli sağlam olan, daim Azərbaycan xalqının maraqlarını müdafiə edən Yeni Azərbaycan Partiyasının prinsipləri də milli mənafelərə əsaslanır. Məhz bu baxımdan, YAP bundan sonrakı onilliklər, yüzilliklər ərzində Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edəcək və ölkəmizin köklü problemlərinin həllində partiyamızın öz dəst-xətti görünəcəkdir.

Tədbirdə Qaradağlı ərazi ilk partiya təşkilatı qadınlar şurasının sədri Ülkər Hümbətova, kənd bələdiyyəsinin sədri Elmir Hüseynov, kənd tam orta məktəbin direktoru Rəşad Məmmədov çıxış edərək partiyanın yaranma tarixindən və respublikamızda gedən iqtisadi və sosial inkişafdan geniş danışaraq qeyd etdilər ki, respublikamız hörmətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə daha da sürətlə inkişaf edir. Onlar qeyd etdilər ki, biz YAP üzvlərini 2018-ci ildə yeni bir sınaq gözləyir. "Biz bu sınaqdan da uğurla çıxaraq, Cənab İlham Əliyevin seçkilərdə qələbəsinə nail olacağıq"-deyə çıxış edənlər vurğulayıblar.

Xatırladaq ki, rayonun Şadılı, Əlirzalı, Rəhimli, Borsunlu kənd ərazi ilk partiya təşkilatlarında da yubiley tədbirləri yüksək səviyyədə keçirilib və hər bir tədbirin sonunda yeni qəbul olmuş YAP üzvlərinə yeni vəsiqələr təqdim edilib.

***Rövşən RƏSULOV***

# DQDK yanında İctimai Şura üzvlüyünə namizədlərin irəli sürülməsinin vaxtı müəyyən edildi



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, komitənin fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakını təmin etmək məqsədilə Dövlət Komitəsi yanında İctimai Şuranın yaradılması prosesinə başlanılıb. Komitədən "SƏS"ə daxil olan məlumata görə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2.1-ci bəndini nəzərə alaraq, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin 207 nömrəli, 05.10.2017-ci il tarixli əmri ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə Seçki Komissiyası yaradılıb. Seçki Komissiyası tərəfindən İctimai Şuranın üzvlərinin say həddi və İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün nəzərdə tutulan müddət müəyyən edilib.

Belə ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yanında İctimai Şuranın üzvlüyünə namizədlərin irəli sürülməsi prosesi üçün 12 oktyabr 2017-ci il tarixindən 10 noyabr 2017-ci il tarixinədək qeydiyyat aparılacaq.

Müraciətə aşağıdakı sənədlər əlavə edilməlidir:

namizədin şəxsiyyət vəsiqəsinin surəti;

namizədin tərcümeyi-halı;

namizəd hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda həmin üzvlüyü təsdiq edən sənədin surəti.

Bütün bunlardan əlavə, namizəd barədə ətraflı məlumat verən digər sənədlər də təqdim oluna bilər.

Seçki ilə əlaqədar Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet poçt ünvanına (press-@scwra.gov.az) və ya Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə müraciət edilə bilər.

***Rövşən NURƏDDİNOĞLU***

# Ağcabədidə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubiley tədbirləri davam edir



Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının 6 saylı ərazi ilk partiya təşkilatında YAP-ın yaradılmasının 25 illiyi münasibətilə tədbir keçirilib. Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra tədbiri giriş sözü ilə açan ərazi ilk partiya təşkilatının sədri Əli Bədəlov bildirib ki, Yeni Azərbaycan Partiyası siyasi səhnəyə XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə gəlmişdir: "Bu illər ərzində tez-tez hakimiyyət dəyişikliyi və daxili siyasi qarşıdurmanın dərinləşməsi sayəsində ölkədə böhran vəziyyəti qorxulu həddə çatmışdı. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda Ona müraciət ünvanladılar. Partiyanın təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirildi və Dahi Öndər Heydər Əliyev YAP-ın Sədri seçildi. Konfransda Azərbaycanın əksər bölgələrindən cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndə iştirak edirdi. Beləliklə, Azərbaycanın ictimai-siyasi səhnəsinə cəmiyyətdəki qüvvələr nisbətini və bundan sonra ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv surətdə dəyişən partiya meydana çıxdı".

Tədbirdə 6 saylı tam orta məktəbin direktoru, YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədr müavini Nərminə Əkbərova çıxış edərək dedi ki, YAP-ın ilk addımları Azərbaycanda siyasi sabitliyin bərpasına yönəldilmişdi: "O vaxt xalqın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər, qısa müddət ərzində, ölkədəki ağır vəziyyəti sabitləşdirdi və bu da imkan verdi ki, ölkəmiz inkişaf yoluna qədəm qoysun. O vaxtdan bu günə qədər Azərbaycan yalnız inkişaf yolu ilə addımlayır. Ölkənin xarici siyasəti, nəhayət ki, məqsədyönlü siyasətə çevrildi və bu gün bu siyasət Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən davam etdirilir".

Tədbirdə YAP üzvləri Kəmalə Quliyeva, Rövşən Əhmədov çıxış edərək, YAP-ın yaranması, inkişafı, ölkənin ictimai-siyasi həyatında oynadıqları rol barədə öz fikirlərini bildiriblər və Yeni Azərbaycan Partiyasının üzvləri olmaqdan qürur duyduqlarını diqqətə çatdırıblar. Tədbirdə YAP Ağcabədi rayon təşkilatının baş məsləhətçisi, YAP Ağcabədi rayon təşkilatının idarə heyətinin üzvü Ramil Nağıyev çıxış edərək, YAP-ın 25 illik yubileyi münasibətilə siyasi həmfikirlərini təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

***ZÜMRÜD***

# Jurnalistlər "Azərsun Holdinq"ə məxsus Yağ fabrikini ziyarət ediblər

Ölkənin aparıcı KİV nümayəndələri üçün mütəmadi olaraq media turlar təşkil edən "Azərsun Holdinq" bu dəfə media mənsublarını Yağ Fabrikinə dəvət edib. "Azərsun Sənaye Parkı"nda yerləşən Yağ Fabrikində qonaq olan jurnalistlərə əvvəlcə "Azərsun Sənaye Parkı" barədə məlumat verilib, burada Yağ fabrikindən başqa həmçinin Kağızın Təkrar Emalı müəssisəsinin də yerləşdiyi bildirilib. Daha sonra KİV nümayəndələrini qarşılayan Bakı Qida və Yağ fabrikinin müdiri Şahəddin İbrahimov illik istehsal həcmi 270 min ton olan müəssisə barədə qısa məlumat verib və onları Fabrikin bitki yağların istehsal edildiyi sahəyə dəvət edib. Əvvəlcə qarğıdalı yağının istehsalını müşahidə edən media mənsublarına müəssisənin ən müasir avadanlıqlarla təchiz edildiyi bildirilib. Bundan sonra jurnalistlərə zeytun yağlarının istehsal prosesi nümayiş etdiriib və istehsal xəttində olan "Zeytun bağları" markasının tam olaraq Abşeron rayonu ərazisindən toplanan yerli zeytundan hazırlandığı qeyd edilib. Bitki yağları ilə bağlı jurnalistlərin suallarını cavablandıran duru yağların istehsalı sahəsinin müdiri Hüseyn Qocamanov daxil olan şikayətlərlə bağlı suala cavab verərkən ən çox rastlaşılan problemin bəzi mağazalarda saxlanma şəraitinin tələblərə cavab vermədiyini bildirib. O, bu məsələyə evlərdə istehlakçılar tərəfindən də ciddi riayət olunmadığını söyləyib və duru bitki yağlarının tələb olunan şəraitdə saxlanılmadıqda keyfiyyətini itirdiyini söyləyib. Bitki yağlarının istehsal prosesi ilə tanışlıq bitdikdən sonra jurnalistlər kərə və spred yağlarının istehsal edildiyi sahəyə keçiblər. Onların kərə yağlarının istehsalı ilə bağlı suallarını cavablandıran mütəxəssislər bu məhsulun Yeni Zellandiyadan idxal edildiyini bildiriblər və "Azərsun Holdinq"in kərə yağı bazarında payının cəmi 5-7 faiz təşkil etdiyi bildirilib. Sumqayıtda isə böyük həcmdə idxal edilən kərə yağının çəkilərə görə daha kiçik həcmlərdə qablaşdırılaraq satışa çıxarıldığı qeyd edilib. Jurnalistlərin kərə yağının xammal tələbatını daxili istehsal hesabına təmin etmək barədə sualına cavab verən "Azərsun Holdinq"in İctimaiyyətlə Əlaqələr və Biznesin İnkişafına Dəstək Departamentinin müdiri Afiq Səfərov bunun çox baha başa gəldiyini söyləyib. O Yeni Zelandiyanın iqlim şəraitinin daha münbit olduğunu və süd məhsullarının yağlılıq dərəcəsinin əksər dünya ölkələrindən qat-qat çox olduğunu bildirib. Bunun nəticəsi olaraq həmin ölkədə kərə yağının əldə olunması digər ölkələrdən dəfələrlə ucuz başa gəlir. "Azərsun Holdinq" tərəfindən keyfiyyəti beynəlxalaq sertifikatlarla təsdiq edilmiş kərə yağları idxal edilərək tərkibinə heç bir dəyişiklik edilmədən müxtəlif çəkilərdə qablaşdırılaraq "Best Cow", "Wellington" markaları ilə istehlakçılara təklif edildiyi bildirilib. İstehsal sahəsi ilə tanışlıqdan sonra jurnalistlərə rafinasiya sahəsi nümayiş etdirilib və müəssisəyə daxil olan xammalın müasir avadanlıqlarla təchiz edilmiş bu sahədə zəruri yoxlamalardan keçərək yad maddələrdən təmizləndiyi qeyd edilib. Müəssisənin laboratoriyasını ziyarət edən jurnalistlərə Yağ fabrikində də "Azərsun Holdinq"in digər müəssisələrində olduğu kimi keyfiyyətə nəzarətin ən yüksək səviyyədə təmin edildiyi gün ərzində, istehsalın bütün mərhələlərində məhsullar üzərində 1000-1500 testin edildiyi bildirilib. Bundan başqa laboratoriyanın dəfələrlə beynəlxalq müsabiqələrdə mükafatçı və qalib olduğu qeyd edilib. Laboratoriya ilə tanışlıq bitdikdən sonra jurnalistləri maraqlandıran suallara "Azərsun Holdinq"in Araşdırma və Təkmilləşdirilmə direktorluğunun yağ məhsulları üzrə baş mütəxəssisi Tural Babayev cavab verib. O, ilk olaraq insan orqanizminin həm bitki həm kərə yağına ehtiyac duyduğunu bildirib və bunlardan birinin imtinasının və ya aşırı istifadəsinin insan sağlamlığı üçün zərərli olduğunu bildirib. Jurnalistlərin palma yağı barədə sualını cavablandıran mütəxəssis bu mövzuda çoxlu sayda miflərin formalaşdığını bildirib. Tural Babayev dünyanın ən məşhur markalarının belə bu məhsuldan istifadə etdiyini və dünyanın əksər ölkələrində palma yağından istifadəyə heç bir məhdudiyyətin tətbiq edilmədiyini bildirib. Mütəxəssis bu yağın təbii halda bərk formada olmasının da ona əlavə üstünlüklər qazandırdığını qeyd edib. Digər bitki yağları duru formada olduğu üçün onların bərkləşdirilməsi bəzən kimyəvi müdaxilə nəticəsində mümkün olur ki, bu da yağın tərkibində insan sağlamlığı üçün olduqca zərərli transyağların əmələ gəlməsinə səbəb olur. Tural Babayev "Azərsun Holdinq" tərəfindən istehsal olunan heç bir yağın tərkibində trans yağların olmadığını bildirib və keyfiyyətə nəzarətin ən yüksək səviyyədə təmin edildiyini qeyd edib.



Qeyd edək ki, "Azərsun Sənaye Parkı"nda 2014-cü ildə istismara verilmiş Yağ fabrikində məhsullar insan əli dəymədən tam avtomatlaşdırılmış avadanlıqlarla istehsal edilir. Müəssisənin istehsal həcmi isə ölkədaxili tələbatdan təxminən iki dəfə çoxdur.

# Dayanmayan Avropa qərəzi: Azərbaycan qətiyyət prinsipiallığını nümayiş etdirmək əzmindədir

## *Yaqland həyasızlığının son həddi AŞPA-nın Azərbaycanı itirməsi ilə nəticələnəcək!*

***AŞPA-nın baş katibi, son zamanlar Azərbaycana qarşı aşırı qərəzi və şantajları ilə hücum edən, xüsusilə, ermənipərəstliyi ilə seçilən Turbyern Yaqland rəhbərliyindən sui-istifadə edərək, təzyiqlər vasitəsi ilə Azərbaycana qarşı daha iki sənəd qəbul edib. Belə ki, adıçəilən qurum qarşısında Azərbaycanın öhdəliklərinə dair həmməruzəçilər Stefan Şennax və Sezar Florin Predanın hazırladıqları "Azərbaycanda demokratik təsisatların vəziyyəti" adlı hesabat üzrə 14403 saylı qətnamə səsvermədə 117 lehinə, 18 əleyhinə səslə qəbul edilib.***



**Guya sənədlər, sən demə, "anti-Azərbaycan və ya anti-müsəlman bir addım deyil"miş...**

Onu da xatırladaq ki, Azərbaycanın öhdəlikləri üzrə məruzəçilər Stefan Şennax və Preda Sezarın hazırladıqları "Azərbaycanda demokratik təsisatların vəziyyəti" adlı hesabatlar üzrə dinləmələr keçirildikdən sonra Alen Desteksin "Azərbaycanın Avropa Şurasında sədrliyi: insan hüquqlarına əməl edilməsi sahəsində atılacaq növbəti addımların vəziyyətinə dair" hesabatı dinlənilib. A. Desteks toplantıda olmadığından, onu məruzəçi qismində ukraynalı deputat, xanım Olena Sotnik əvəz edib.

Eyni zamanda, çıxış edən məruzəçilər Azərbaycana etdikləri səfərlər, keçirdikləri görüşlər barədə danışmaqla yanaşı, hazırladıqları hesabatların xülasəsini diqqətə çatdırıblar. Belə ki, S.Şennax Azərbaycana son səfərləri zamanı dövlət rəsmiləri ilə yanaşı, vətəndaş cəmiyyəti təmsilçiləri ilə və məhbuslarla görüşdüklərini bildirib. "Biz buraya hansısa ölkəyə dərs vermək üçün yığışmamışıq, biz, sadəcə, üzv ölkələrin demokratik inkişafına öz yardımımızı göstəririk"-deyə qeyd edən Şennax əlavə edib ki, o və digər nümayəndələr Azərbaycanda bir çox sahələrdə irəliləyişlərin olduğunu müşahidə ediblər: "Hökumət nümayəndələri ilə əməkdaşlıq edərək, müsbət irəliləyişlərə nail olmuşuq".

Daha sonra hər iki hesabat üzrə ümumi müzakirələr keçirilib və Şennax hesabatı təqdim edərkən bildirib ki, Azərbaycan hökümətinə polis fəaliyyəti, polisdə gender balansı barədə tövsiyələr verilib. Şennax onu da vurğulayıb ki, Azərbaycan hökuməti ilə böyük irəliləyişlər əldə edilib.

Lakin Azad Demokratlar Qrupundan olan Sergio Divina ölkəmizi ifrat dərəcədə tənqid etməməyə çağırıb. "Hər kəs özü özünə uyğun olan hökumət seçir, qüvvələr ayrılığının tənqidi yersizdir, çünki Azərbaycanın mədəniyyətini nəzərə almaq lazımdır. Bu səbəbdən, "Azərbaycana qarşı hər hansı bir sanksiya və ya cəza olmamalıdır"-deyə Divina vurğulayıb.

Açıq-aşkar erməni lobbisinin sifarişi əsasında çıxış edən və bu lobbi vasitəsilə satın alındığı güman edilən sosialist deputat Konstantinos Efstathiou isə Azərbaycana qarşı daha sərt addımlara çağırıb. Belə ki, guya sənədlər, sən demə, "anti-Azərbaycan və ya anti-müsəlman bir addım deyil"miş. "Bu Azərbaycan xalqının xeyrinədir"-deyə sözlərinə haqq qazandırmağa cəhd edən bu avropalı erməniperəs, əslində, Azərbaycan xalqına və ümumiyyətlə, müsəlman ölkələrə qarşı nə qədər dözümsüz olduğunu sübuta yetirmiş olub.

**Görünür, ölkəmizin siyasi əxlaqa və diplomatik etikaya riayət etməsi sonda AŞPA-da başqa cür qəbul olunur və ölkəmiz sürəkli təzyiqlərlə və pressinqlərlə qarşı-qarşıya qalır**

Bu isə, eyni zamanda, belə qənaətə gəlməyə zəmin yaradır ki, AŞPA müxtəlif tribunalarda - mediada və s. vasitələrdə Azərbaycanla münasibətdə dialoqa tərəfdar olduğunu desə də, qurumun sədri Turbyern Yaqlandın ölkəmizə qarşı aşkar antipatiyasının mövcudluğu, onun xalqımıza, ümumiyyətlə, dövlətçilik quruluşumuza qarşı nifrət üzərində köklənmiş mövqe tutur. Hətta o, bir az da irəli gedərək, əsl erməni və ermənipərəst avropalı həyasızlığı sərgiləyərək, AŞPA-nın kuluarlarında "Azərbaycanı mütləq cəzalandırmaq lazımdır" ifadələrini önə çəkib!

Məhz bu zaman Azərbaycan xalqı AŞPA-nın dialoq tərəfdarı olması barədə bəyanatlarının səmimi olmadığını bir daha yəqinləşdirir və Qərbdə fəaliyyət göstərən imkanlı erməni lobbisinin pullarına satıldığını aşkara çıxarır. Əks halda, bənzər fikirlərin AŞPA kimi siyasi qurumun rəhbəri tərəfindən səsləndirilməsi baş verməzdi.

Yeri gəlmişkən, onu da xatırladaq ki, rəsmi Bakı AŞPA-da səslənən konstruktiv tənqidləri heç vaxt rədd etməyib. Görünür, ölkəmizin siyasi əxlaqa və diplomatik etikaya riayət etməsi sonda AŞPA-da başqa cür qəbul olunur və ölkəmiz sürəkli təzyiqlərlə, pressinqlərlə və qarşı-qarşıya qalır.

Bundan başqa, zaman keçdikcə siyasi marionet təsiri bağışlamağa başlamış ermənipərəst Yaqland Qərbin sanksiyalar tətbiq etdiyi Rusiya ilə əlaqələri normallaşdırmağa cəhd edərək, Moskvaya dalbadal 5 səfər edibsə, Azərbaycanla bağlı məsələlərdə düşmənçilik və qərəz mövqelərindən çıxış edir.

AŞPA-nın qərəzini sübuta yetirən daha bir amil sənədlərdə Azərbaycanın həyata keçirdiyi islahatların və gördüyü işlərin əks olunmamasıdır. Məsələn, yüzlərlə məhbus əfv olunub, amma nə hesabatda, nə də qətnamələrdə bu, qeyd olunmayıb. Ölkəmizdə müxalifət istədiyi vaxt aksiyalar və mitinqlər keçirir və bu amilə də toxunulmur (?!-R.N.). Bunun yerinə isə açıq mənbələrdən alınan məlumatların hesabata daxil edilməsi əsl absurdluq hesab edilə bilər və burada erməni lobbisinin izi növbəti dəfə görünməyə başlayır.

Azərbaycan öz inkişafı və tərəqqisi, eləcə də, demokratiya strategiyası ilə heç də AŞPA sıralarında qalıb ürək bulandıran "tövsiyələri" dinləmək marağında da deyil.

**Bu zaman belə bir sual yaranır - nədir ermənipərəst, marionet və korrupsiyaçı- rüşvətxor Yaqlandın istəyi?**

Əlbəttə, ölkəmizin AŞPA-dan çıxarılması məsələsini utanıb-qızarmadan dilinə gətirən T.Yaqlandın nəzərdə tutduğu addımı yenə bu istiqamətdədir.

Beləliklə, müzakirələrdən və səsvermədən sonra qəbul edilən sənədlər siyasi motivasiyalı, reallıqdan və Azərbaycandakı gerçək durumdan çox uzaq, qərəzli və subyektiv olduğundan, heç bir halda Bakı sözügedən sənədlərlə, əsla, razılaşa bilməz. Çünki AŞPA-da bu gün gerçəkləşdirilən, ssenari müəlliflərindən birinin T.Yaqland olduğu kabare-şou Avropa Şurasının siyasi azadlıqları təcəssüm etdirən fundamental siyasi və humanist dəyərlərdən, vətəndaş azadlıqları və dövlətlə fərd arasındakı münasibətlərin məcmusunun çağdaş formatından uzaq olay olduğunu göstərdi.

Yeri gəlmişkən, bu gün Azərbaycan öz inkişafı və tərəqqi, eləcə də, demokratiya strategiyası ilə heç də AŞPA sıralarında qalıb ürək bulandıran "tövsiyələri" dinləmək




marağında da deyil. Yaxşı olardı ki, Yaqland da, ermənilərin sifarişini həyata keçirərkən, sonrakı aqibətini düşünsün. Çünki ölkəmizə qarşı ədalət və demokratik prinsiplər çərçivəsində yanaşan avropalı deputatlar onun yaxasından yapışaraq, etibarlı üzvə qarşı hansı səbəbdən belə davranmasının hesabını sora bilərlər.

Ümumiyyətlə, Turbyern Yaqlandın özü öz siyasi karyerası barədə narahatlıq keçirməlidir ki, aşkar lobbi korrupsiyasının iş icraçısına çevrilib. Çünki Azərbaycana qarşı qərəzçilik və şantajlar püskürən Yaqland bu reallıqları da xatırlamağa məhkumdur:

**1.** AŞPA-dakı bugünkü burleskdə "Azərbaycan niyə "REAL" hərəkatının sədri İlqar Məmmədovla bağlı qərarı icra etmir?" ritorikası, xüsusilə, güclü idi. Halbuki Avropanın bir sıra aparıcı ölkələrində sırf siyasi məqsədlərinə görə həbs olunan yüzlərlə insan var və hələ də onların məhkəmələri "havadan asılı" qalmaqda davam edir.

**2.** AŞPA üzvü olan Britaniya, ümumiyyətlə, bu qurumun məhkəmə qərarlarını adi kağız parçası sayır.

**3.** Rusiya ölkənin məhkəmə sistemini AŞPA-nın və Avropa İnsan Haqları Məhkəməsinin qərarlarından üstün tutur, yəni icra etmir.

**4.** Moldova AİHM-in qərarlarını 10 ildən bəri vecinə almır.

**5.** Fransa, İtaliya, Rumıniya, Portuqaliya, Polşa və daha 12 ölkədə son illərdə AİHM-in 10000 (!) qərarı icra olunmayıb.

Ən nəhayət, işğalçı siyasət yürüdən, terrorizmi və s. cinayətkarlıq üsullarını dövlət siyasətinə çevirən Ermənistan AŞPA-nın və AİHM-in qərarlarına, qətnamələrinə, nəinki əməl etmir, hətta ümumiyyətlə, heç tüpürmür də!

2008-ci ildəki prezident seçkilərində gülləbaran, Ermənistan müxalifətçilərinin 2011-ci ildə kütləvi həbsləri, Yerevanda "Sasna Srer"ə qarşı əməliyyat - Ermənistanla bağlı 162 qərar var, amma nədənsə, onların heç biri icra edilməyib.

Habelə, Azərbaycana qarşı edilən tələblər müqabilində AŞPA insan haqlarını əsas gətirərək, Azərbaycan ərazisinin 20 faizini işğal etmiş işğalçı Ermənistandakı durumu müzakirə etməliydi, amma etmədi. Çünki sifarişçi elə erməni lobbisinin özüdür. Bu sifarişin rüşvətxor və korrupsiya bataqlığına düşənlər isə T.Yaqland və onun ətrafındakı bir neçə dəstəkçiləridir.

Sonda isə bizləri belə bir sual düşündürür: nəyə görə Azərbaycan AŞPA-nın üzvü olaraq qalmaqdadır? Aşkar düşmən mövqeyindən çıxış edən bir qurumda qalmaq bu qədərmi vacibdir? Hər halda, Azərbaycan növbəti dəfə öz qətiyyətlilik prinsipini ortaya qoyaraq, Yaqland başda olmaqla, onun yanyörəsindəkilərə ibrət dərsi verməli olacaq !

***Rövşən NURƏDDİNOĞLU***

# “Lukaşenko general Sidorovun “ağzından vurdu”

## “Rusiya rəsmiləri generalın bu cür sərsəm fikirlərinə mütləq reaksiya verməlidirlər”

***Ermənistanda Rusiya və Ermənistan silahlı qüvvələrinin birləşmiş qoşunlarının iştirakı ilə “KTMT-nın Qarşılıqlı təsir” adlı birgə təlimlərləri keçirilir. Diqqətçəkən məqam ondan ibarətdi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Birləşmiş Qoşunlarının qərargah rəisi Anatoli Sidorov 20 minlik çevik qoşunla Ermənistanın yanında olacaqlarını bildirib. Sual yaranır: bu məsuliyyətsiz bəyanat nədən qaynaqlanır. Söhbət etdiyimiz müsahiblərimiz Anatoli Sidorovun açıqlamasının təhdiddən başqa bir şey olmadığını və açıqlamanı verərkən Anatoli Sidorovun ya içkili vəziyyətdə olduğunu, ya da öz səlahiyyətlərini və Kollektiv Təhlükəsizlik Şurasının Nizamnaməsini dərk etmədiyini bildirdilər.***





**Millət vəkili Çingiz Qənizadə:**

- Bu cür ifadənin rəsmi şəxsin dilindən işlədilməsi ciddi arqumentdir. Ən azı o adam başa düşməli idi ki, Kollektiv Təhlükəsizlik Şurasına üzv olan dövlətlərin sərhədlərinin mühafizəsi zamanından söhbət gedir ki, onlar bir-birinə hərbi yardım göstərsinlər. Amma Anatoli Sidorovun açıqlaması birbaşa təhdiddən ibarətdir. Belə görünür ki, Anatoli Sidorov ya içkili vəziyyətdə olub, ya da öz səlahiyyətlərini və Kollektiv Təhlükəsizlik Şurasının Nizamnaməsini dərk etmir. Əgər Dağlıq Qarabağda hansısa bir müharibə və yaxud da döyüş başlasa, Rusiyanın Ermənistan tərəfindən 20 minlik qoşunla çıxış etməsini səsləndirən bu sərsəm generalın fikirləri Azərbaycan dövlətinə təhdiddir. Ən yaxşı halda, Rusiya rəsmiləri generalın bu cür sərsəm fikirlərinə mütləq reaksiya verməlidirlər və yaxud onun vəzifədən düşülməsi məsələsi qabardıla bilərdi. Hətta bu məsələni Azərbaycan dövləti də qabarda bilər ki, yəni o, birbaşa Azərbaycan dövlətini təhdid edən fikirləri ortaya qoyub və onun səlahiyyətlərinə aid olmayan bir məsələni dövlət adından bəyan edir.

**Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu:**




- Bu, bir bəyanat olaraq qalacaq fikirdir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzv dövlətləri o şuranı təşkil edən dövlətlərin iradəsi ilə hərəkətə keçə bilərlər. Burada da bu müqavilədə birləşən dövlətlərin də əsas qayəsi ölkələrin ərazi bütövlüyünə təhdid yaranarsa, bu cür qərarlar qəbul oluna bilər. Amma bildiyiniz kimi Ermənistan işğalçı bir dövlətdir və Azərbaycan torpaqlarını işğal edib. Düşünmürəm ki, Anatoli Sidorovun bəyanatı hər hansı ciddi bir əsasa söykənib. Ümumiyyətlə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının öz Əsasnaməsi və Nizamnaməsi var. Anatoli Sidorov yalnız o halda Ermənistanın yanında ola bilər ki, Ermənistanın ərazi bütövlüyü ilə bağlı təhdid yaransın. Belə bir məsələ hazırkı məqamda mövcud deyil. Digər tərəfdən, KTMT-nin üzvü olan dövlətlərlə Azərbaycanın çox isti münasibəti var. Bu baxımdan, Anatoli Sidorovun bəyanatı məsuliyyətsiz bəyanatdan başqa bir şey deyil.

**Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:**

- Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Birləşmiş Qoşunlarının qərargah rəisi Anatoli Sidorovun, müvafiq qərar qəbul ediləcəyi təqdirdə, Ermənistana hərbi kömək göstərməyə hazır olmaq yönümündə məlum açıqlaması cəfəng və mənasız ifadələrdən başqa bir şey deyildir. Birincisi, KTMT-nın qərarları şura tərəfindən qəbul edilir və birmənalı olaraq qeyd edilən şuranın bu cür qərar qəbul edəcəyi mümkün deyil. Digər tərəfdən, hesab edirəm ki, bu sərsəmləmə müstəqil Azərbaycanın münaqişənin həllində böyük üstünlük əldə etməsini həzm edə bilməyən müəyyən ermənipərəst siyasi qüvvələrin sifarişidir. Azərbaycan işğalçıya qarşı münasibətdə haqlı mövqeyində israrlıdır və bu istiqamətdə ölkə başçımız, Ali Baş Komandan İlham Əliyevin son dövrlərdə qəti və kəskin fikirləri, eyni zamanda, keçən ilin aprel döyüşlərində düşmənin hərbi kontingentindən qat-qat üstünlüyünü həzm edə bilməyən bu cür “sərxoş” düşüncəli yüksək rütbəli hərbçilərin nə danışmalarından asılı olmayaraq, biz öz torpaqlarımızın bir qarışını belə güzəştə getməyəcəyik. Düşmənin işğal altında saxladığı torpaqların Azərbaycana məxsus olmasını və işğalçının qoşunlarının həmin torpaqları qeyd-şərtsiz tərk etmələri ilə bağlı dünya dövlətləri, BMT və digər beynəlxalq qurumlar eyni mövqedədirlər. Belə olan vəziyyətdə, kimin hansısa əks-fikir söyləməsi, sərsəmləməsi ürəkbulandırıcı olsa da, əhəmiyyətsizdir. Artıq KTMT-yə üzv olan dövlətlərdən olan Belarusun dövlət başçısı Lukaşenko general Sidorovun “ağzından vurdu” və Azərbaycanın yanında olduğunu müdafiə naziri, general-polkovnik Zakir Həsənovla görüşdə bir daha vurğuladı. Təbii ki, bu səviyyəli bir hərbçinin təhdidlə zəngin olan ifadəsi narahatedicidir və kimin kimin tərəfində olduğunu, iqtisadi və hərbi gücü bizdən qat-qat zəif olan işğalçının torpaqlarımızı kimlərin köməyi ilə işğal etdiyini, hansı güclərin dəstəyi ilə bu prosesin hələ də həll edilməmiş qalmasını biz yaxşı bilirik.

**GÜLYANƏ**

---



## Uğursuzluğun aşkar sübutu...

**RƏFİQƏ**

**Çox qəribədir, sözün düzünü deyəndə, müxalifət qıcıqlanır. Ən çox da müxalifətin sosial bazası haqqında danışanda çoxlarını ikrah hissi bürüyür. Kor-kor, gör-gör. Ümumən, ölkədə dağıdıcı müxlifətin sosial bazası yox səviyyəsindədir. Səbəblərini də özləri yaxşı bilir. Daha dəqiqi isə, görünən odur ki, müxalifətin öz ətrafında sosial baza toplaya bilməməsinin səbəblərini onların öz içərilərində axtarmaq lazımdır. Baxın, artıq 25 ildir ki, onlar ortaya normal bir fəaliyyət qoya bilmədikləri üçün, seçkilərdə dəfələrlə uduzublar, sosial bazalarını itirə-itirə, bir-birilərini qıra-qıra, düşmən elan edə-edə!**

Üzü... qırmızı olan “liderlər” elə həyasızcasına seçkilərdən-seçkilərə bəyan edirlər ki, onların partiyalarına böyük axın var, ancaq seçkilərdən sonra nəyi görürük? İttihamlar, hakimiyyətə qarşı böhtan, şər kampaniyaları. Hələ bir dəfə görmədik ki, özlərini müxalifətin hətta “atası” elan edənlər durub desinlər - günahkar mənəm! Heç görməyəcəyik də. Vətən xaini, cinayətkar Əli Kərimli, İsa Qəmbər olanlardan belə cürət mövcud deyil, qorxaqdırlar...

**Bizə də bu lazımdır...**

Elə buna görə də, az-çox tanınan, üzdə olan simalar sürətlə partiyaları tərk edir. Çünki müxalifət heç vaxt buraxdığı səhvləri müzakirə etməyib, indiyə qədər seçkiləri uduzmaq səbəblərini araşdırmayıb. Müxalifətin tədbirlərinin böyük əksəriyyəti məhz partiyaların bir-birilə yarışması kimi yadda qalıb. İlk baxışdan demək mümkündür ki, radikallar seçkiləri uduza-uduza gəliblər. O cümlədən, ictimai-siyasi proseslərə təsir imkanları sıfır həddində olan dağıdıcı təmayüllülərdən xalq da imtina edib. Dağıdıcı müxalifətlə müqayisədə konstruktiv müxalifətin sosial dayaqları isə daha çoxdur. Onları isə radikallarda, məhz bu kimi amillər fərqləndirir.

Bu gün konstruktiv müxalifətin sosial bazası, ona görə qismən də olsa var ki, onlar proseslərin gedişinə daha realist, praqmatik prizmadan yanaşırlar. Populist, ambisiyalı və reallığa uyğun olmayan vədlər vermirlər. İqtidarın yürütdüyü siyasəti kökündən inkar etmir, uğurları isə təqdir edirlər. Bu da, istər-istəməz, onların cəmiyyətdə özlərinə tərəfdar tapmalarına kömək edir. Yəni bu faktorları parlamentdə təmsil olunan konstruktiv müxalifət təmsilçilərinin mövqeyindən də sezmək mümkündür. Ona görə də, bu gün hakimiyyətə yersiz iftiralar atıb tənqid deyil, hətta düşmənçilik edən dağıdıcı müxalifət, ən azından, vaxtilə onlarla bir olmuş insanlardan ibrət dərsi götürməlidir. Amma görünən budur ki, onların kimlərdənsə dərs almaq maraqları yoxdur. Elə isə uduzmaqlarında, rüsvay və biabır olmalarında davam etsinlər. Bizə də elə bu lazımdır...

---

## Kərə yağı dünya birjalarında bahalaşır



Bugünkü reallıq ondan ibarətdir ki, kərə yağı dünya birjalarında bahalaşır. AZƏRTAC xəbər verir ki, bunu Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev jurnalistlərə müsahibəsində deyib. Qurum rəhbəri bildirib ki, DGK-nin vəzifəsi ölkəyə idxal olunan və ölkədən ixrac olunan yüklərin rəsmiləşdirilməsindən ibarətdir. “Bugünkü reallıq ondan ibarətdir ki, kərə yağı dünya birjalarında bahalaşır. Bu da ölkəyə gətirilən məhsulun qiymətinə təsirsiz ötüşmür. Əsas idxalçı ölkələrdən biri də Yeni Zelandiyadır. Gömrük orqanlarının vəzifəsi ölkəyə gətirilən yükün rəsmiləşdirilməsindən ibarətdir”, - deyə Aydın Əliyev bildirib.

## Bu il mənfəət neftinin və qazın satışından Neft Fonduna 4,6 milyard dollar daxil olub



Cari ilin 9 ayı ərzində Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) mənfəət neftinin və qazın satışından 4 milyard 602,6 milyon ABŞ dolları və yaxud 7 milyard 957,8 milyon manat məbləğində vəsait daxil olub. Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Dövlət Neft Fondundan bildirilib.

# Rəsul Quliyevin qeyri-ciddi ideyaları...

## Ənənəvi müxalifət eks-spikerə qarşı çıxış edir

***ABŞ-da mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyevin sosial şəbəkə vasitəsilə 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkilərinə qatılması üçün namizədliyini irəli sürəcəyi, eləcə də, ölkəyə geri dönəcəyi ilə bağlı fikirlərini açıqlaması ənənəvi müxalifət düşərgəsində birmənalı qarşılanmayıb. Xüsusilə, 2005-ci ildə parlament seçkiləri ərəfəsində Azərbaycana qayıdacağını vəd etmiş və ADP-yə həmsədrlik etmiş R.Quliyevi dəstəkləyən ənənəvi müxalifət onun budəfəki fikirlərinə qarşı çıxırlar. Düzdür, nə ənənəvi müxalifət "liderləri", nə də R.Quliyev ucuz təfəkkür və utopik siyasi təxəyyül baxımından qətiyyən dəyişilməyiblər. Çünki illərin ötməsinə baxmayaraq, dar çərçivədə formalaşmış "siyasi baxışlar" inkişaf etməməklə yanaşı, ortada hər hansı bir yenilik də yoxdur. Bu baxımdan, R.Quliyevin "gəlirəm" tipli növbəti mesajı nə xalq, nə də keçmiş dostları tərəfindən ciddi qəbul olunmamaqdadır.***



### İsgəndər Həmidov 2005-ci ili xatırladıb və Rəsul Quliyevi qorxaq və cəsarətsiz adlandırıb

Başqa tərəfdən, bu gün ortada olan və uzun illərə söykənən siyasi ambisiyalar baxımından, düşərgədə bir-birilərinə qarşı açıq, ya da gizli savaşlar elan edən Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli və s. şəxslər Rəsul Quliyevin onların arasına qatılmasını istəmirlər. Ancaq buna baxmayaraq, eks-spikerin qayıtmaq iddiası bir yana qalsın, hətta müxalifətin "vahid namizədi" olacağını da bəyan edib.

Bu arada, sabiq Müsavat başqanı İ.Qəmbərin siyasi cəhətdən yedək qurumu hesab edilən "Milli-Strateji Düşüncə Mərkəzi"nin üzvü, Azərbaycan Milliyyətçi Demokrat Partiyasının "lideri" İsgəndər Həmidov mövzu ilə bağlı mətbuata açıqlamasında ironik münasibət sərgiləyərək deyib ki, R.Quliyev həmin iddianı irəli sürərkən, sərxoş olub. "Yəqin ki, R.Quliyev yenə də barda filanda oturub və əhvalı yaxşı olanda, Azərbaycana qayıtmaq və seçkidə iştirak etmək xəyallarını qurub"-deyə fikir bildirən "MSDM" üzvü onun növbəti vədinə inananları ümidlənməməyə dəvət edib. O cümlədən, eks-spikeri qorxaq və cəsarətsiz adlandırıb: "Rəsul Quliyev o dərəcədə cəsarət sahibi deyil ki, hansısa təqib olunmağı, həbsə düşməyi gözaltına alsın və bunlardan çəkinməsin. 2005-ci ildə də deyirdi ki, türməyə düşsə də, ölüm təhlükəsi olsa da, gələcək."

İ.Həmidov da 2005-ci ili xatırladaraq, R.Quliyevin bənzər vədinə xilaf çıxdığını, hətta ona görə tərəfdarlarının həbs olunduğunu deyib və bütün bunların, məhz onun qorxaqlığının nəticəsi hesab etdiyini bildirib: "...Təbiətcə qorxaq adamdan böyük nələrsə gözləmək əbəsdir".

AMDP sədri R.Quliyevin, hətta gəlməsinə şəraitin yaradılacağı və geri dönəcəyi halda, müxalifətin ona dəstək verməyəcəyini bildirib: "Rəsul Quliyevin seçkidə iştirak etməsi və hətta müxalifətin vahid namizədi olmasını isə, heç cür ağlıma sığışdıra bilmirəm. Əvvəla, qanunvericiliyə görə son on ildə Azərbaycanda yaşayan Azərbaycan vətəndaşı namizədliyini verə bilər. R.Quliyevin müxalifətin vahid namizədi olması məsələsini ciddi şəkildə ortaya atsalar və müxalifət düşərgəsinə bu barədə müraciət etsələr, "Milli- Strateji Düşüncə Mərkəzi"ndə bu məsələni müzakirə edib, hansı qərara gəldiyimizi elan edərik. Amma şəxsən mən İ.Həmidov kimi R.Quliyevin vahid namizəd olmasının əleyhinə olaram".

### Sabiq Müsavat funksioneri Tural Abbaslı isə eks-spikerin yadına həbs olunacağı ilə bağlı fikirlərini xatırladıb

Digər müxalifətçi, sabiq Müsavat funksioneri Tural Abbaslı da R.Quliyevin bundan sonra müxalifət üçün heç bir səmərə verməyəcəyini hesab etdiyini düşünür və iddia edir ki, ümumiyyətlə, prezidentliyə namizəd olmaq istəyən şəxs mütləq Azərbaycan sərhədləri daxilində olmalıdır: "Xarici dövlətdə oturaraq, prezidentliyə namizədliyini irəli sürmək istər hüquqi, istərsə də texniki baxımdan, xeyli çətin məsələdir".

T.Abbaslı R.Quliyevin qorxaqlığını etiraf etməsini də xatırladıb. "O ki qaldı R.Quliyevin qayıtması məsələsinə, mən bildiyim qədər, Rəsul bəyin özü də dəfələrlə bildirib ki, Azərbaycana qayıdıb həbsxanaya girmək fikrində deyil"-deyə fikir açıqlayan sabiq müsavatçı iddianın reallaşmayacağını bildirib: "Qeyd olunan bütün məqamları nəzərə aldıqda isə, indiki halda Rəsul bəy müxalifət üçün o qədər cazibədar namizəd görünmür. Odur ki, müxalifətin vahid namizəd olmaq şansı yoxdur".

### Naftalin iyi verən "siyasi fiqurlar" nə qədər uzun müddət qalacaqlarsa, xəyanətkar və satqın müxalifət ictimai rəy tərəfindən daha çox rədd ediləcəkdir

Beləliklə, fakt budur ki, R.Quliyev ölkəyə geri dönsə də, dönməsə də, iddiasını ortaya atıb və bu amil, əslində, ənənəvi düşərgəni az, ya da çox narahat etməyə başlayıb. Misal üçün, bu gün hazırda R.Quliyevi dəstəkləyən "Gələcək Azərbaycan Partiyası"dır ki, bu partiyanın resursları, məhz sabiq spiker tərəfindən təmin olunur. Lakin "GAP" da digər müxalifət partiyaları kimi heç bir ictimai dəstəyə malik deyil. Məhz bu amili də nəzərə alarsaq, R.Quliyevin iddiasının gerçəkləşəcəyini düşünmək olmaz.

Nəticə olaraq, ortaya belə bir fikir çıxır ki, hətta R.Quliyev ölkəyə geri dönməsə belə, yəni növbəti dəfə vədinə xilaf çıxarsa, parçalanmış, fəaliyyətsiz və heç bir siyasi-ictimai -məntiqi əsaslara söykənməyən müxalifətin 2018-ci il ümidləri doğrulmamış qalacaq. Bu düşərgədə Ə.Kərimli, İ.Qəmbər, C.Həsənli, A.Hacılı və s. naftalin iyi verən "siyasi fiqurlar" nə qədər uzun müddət qalacaqlarsa, xəyanətkar və satqın müxalifət ictimai rəy tərəfindən daha çox rədd ediləcəkdir.

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifət müxalifəti ittiham edir

## Yaxud mitinq oyunbazlığı -"Milli Şura"nın mitinqləri böyük pulların yuyulmasına hesablanıb

***"Milli Şura"nın sentyabrın 23-ü və oktyabrın 7-də "Məhsul" stadionunda keçirdiyi uğursuz və rüsyaçı mini aksiyalarının ardınca, yenidən növbəti mitinq günü təyin etməsi, nəinki onları dəstəkləməyən insanlar, eyni zamanda, müxalifət daxilindən də qeyri-ciddi qərar olaraq qiymətləndirildi. Məsələ ondadır ki, AXCP sədri Əli Kərimlinin "Milli Şura" adlı oyuncaq qurumun adı altında oynadığı mitinq oyunbazlıqlarının hər biri eyni çıxışlara, şablon və özləri tərəfindən illər öncə hazırlanmış köhnəlmiş "tezislərə" söykənir, eləcə də, orada "bəlağətli natiqlik" edən digərləri də, həmçinin.***

Fakt budur ki, vaxtilə Ə.Kərimli ilə yanyana olmuş, ənənəvi düşərgədə fəaliyyət göstərmiş şəxslər də mitinqlərin sosial sifariş olmadığını, şəxsi məqsədlərə xidmət etdiyini dəfələrlə bəyan ediblər.

### Alternativ AXCP funksioneri: "Ənənəvi müxalifətdə səmimi və dürüst lider yoxdur"

Misal üçün, Ə.Kərimlinin AXCP-sinə alternativ olaraq yaradılmış digər AXCP-nin sədr müavini Ehtiram Mehdiyevə görə, "Milli Şura"nın mitinqləri yalnız maraqlarına hesablanıb: "Bu gün insanlara siyasi oyunlar deyil, problemlərdən uzaq-yaxşı güzəran lazımdır. Mitinqlərə insanların maraq göstərməməsinin səbəbi də elə budur. Xalq artıq aldadılmaqdan yorulub. 20 ildən çoxdur ki, ənənəvi müxalifətin mitinq taktikası heç bir fayda vermir. Xalq eyni simalar, eyni vədlər, mitinqlər, pafoslu çıxışlar eşidir, amma lazım olan arzularına çata bilmir".

Alternativ cəbhəçi funksioner digər maraqdoğurucu nüansa da toxunaraq, bu gün Ə.Kərimlinin ətrafında özlərini "müxalifətin lideri" kimi hiss edənlər barədə də fikir irəli sürüb. Misal üçün, "Milli Şura"da var-gəl edərək, özünü zorla müxalifətçilərə sırıyan Gültəkin Hacıbəylinin ötən mitinqlərdə erməni dəyirmanına su tökdüyünü xatırladan E.Mehdiyev əlavə edib ki, vaxtilə hakimiyyətin yanında olan, sonradan isə radikal müxalifət sıralarında yer alan G.Hacıbəyli heç vaxt öz davranışlarında səmimi olmayıb. Bu baxımdan, sabah onun "Milli Şura"nı tərk edib, digər müxalifət qurumlarına üz tutacağı halda heç kim təəccüblənməməlidir.

Müxalifətçi funksioner hesab edir ki, bu gün "Milli Şura" 1000-2000 adamla mitinq keçirə bilər, lakin bu say, bütövlükdə müxalifət demək deyil. Sadəcə, Ə.Kərimlinin və ətrafının bundan artığına gücü çatmır.



### Ehtiram Mehdiyev: "Hətta müxalifət birləşərsə, yenə o stadionu doldura bilməz"

"Milli Şura"ya qədər də kifayət qədər bənzər qurumlar yaradılıb, amma onların hər biri nəticə etibarilə ağır fiaskoya uğrayıb: "Baxın, mitinqlərdən sonra cəmiyyətdən hər hansı reaksiya da olmur. Eyni mitinqləri vaxtilə eyni simaların birləşdiyi "İctimai Palata" da edirdi. İllər keçdi, amma nə nəticə, nə də simalar dəyişmədi. Dəyişən pullar oldu. "Milli Şura"nın mitinqləri böyük pulların yuyulmasına hesablanıb. Başqa sözlə desək, mitinq keçirib, azalan maliyyələrini artırmaq istəyirlər. Ümumiyyətlə, müxalifət mitinqlərə hazır deyil. Çünki, ənənəvi müxalifətin heç bir sosial bazası yoxdur. Bütün müxalifət birləşərsə, yenə o stadionu doldura bilməz".

Beləliklə, fakt budur ki, bu gün müxalifətin özü həmin düşərgədəcə fəaliyyət göstərən və aksiyalar keçirərək, gücsüzlüyünü, zəifliyini və rüsvayçılığını sübuta yetirən "qüvvələri" rədd edir. Bu isə, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Ə.Kərimlinin növbəti mitinq gününü təyin etməsi heç nəyi dəyişməyəcək. Dəyişən, sadəcə, hər mitinqdə insanların sayının azalması faktı olacaq ki, təkcə 23 sentyabr-7 oktyabr mitinqlərindəki iştirakçı fərqlərini müqayisə edərsək, bunun şahidlərinə çevrilərik.

***R.RƏSULOV***

# Azərbaycan Sovet dövrü ədəbiyyatı: 20-30-cu illər

***Ötən əsrin 20-30-cu illərində milli dövlətçiliyimiz tarixində özünəməxsus yeri olan II Respublikada sovet ideologiyası klassik irsə nihilist münasibət yaratdı və ədəbiyyata, sənətdə ideoloji təmayüllər özünü göstərməyə başladı. Bədirxan Əhmədov özünün fundamental "XX yüzil Azərbaycan ədəbiyyatı" əsərində yazır: "Ədəbi həyatda müzakirə olunan mövzular, problemlər əksərən mərkəzdən ötürülür və bir müddət ədəbi mühitdə çəkişməyə səbəb olurdu. Mədəni irsə münasibət, formalizm və naturalizm əleyhinə, proletkultçuluq, ədəbi mühacirlik və bədii dəyər uğrunda mübarizə kimi kampaniyalara da, məhz mərkəzdən rəvac verilirdi".***

1937-ci ilə qədər ədəbiyyatda Əhməd Cavad və Hüseyn Cavidin stili hələ də üstünlüyünü saxlayırdı. Tahir Qaffarov bu dövrün ədəbiyyatı haqqında belə yazırdı: "Bu illərdə Əhməd Cavad rəmzlər vasitəsilə siyasi lirikanın gözəl nümunələrini yaradır. "Göy-göl" şeirində (1925) o, gözəl, şöhrətli, lakin yaralı, öz dərdi ilə təklənmiş, qeyrətli övladlarından ayrı düşmüş, səsi-sədası heç kəsə çatmayan Vətən obrazı yaradır. Şair "Kür" poemasında (1930) Kürü xalqa bənzədir. Qürurlu, genişqəlbli, incə, işvəli, bəzən də dəliqanlı olan Kürə indi başqasının qarşısında əyilmək, "qatır olmaq", "yük daşımaq", "yer qazmaq" əmri verilib. Şeir oxucuda etiraz oyadır. "Səsli qız" poemasında Cavad müstəqilliyini itirmiş ölkənin labüd olaraq düşdüyü vəziyyəti təsvir edir: Əhməd Cavadın şeirləri böyük təsir gücünə malik idi. Şair mövcud rejim tərəfindən təqib olunsa da, onun şeirlərinin, çoxu əlyazması şəklində əldən-ələ gəzirdi.

Hüseyn Cavid 1922-23-cü illərdə yazdığı "Peyğəmbər" mənzum pyesində tarixi materialdan istifadə edərək, öz dövrünü tənqid atəşinə tutur: Cavid "Topal keskin tənqid edilir.

S.S.Axundovun "Laçın yuvası" pyesində (1921) bolşevik "inqilabı"nın Azərbaycan dağlarında heç bir ictimai bazaya əsaslanmadığı və buna görə, zorakılığa, böyük insan müsibətlərinə səbəb olduğu açıqlanır. Yazıçı bu illərdə məşhur "Qorxulu nağıllar" silsiləsinə yeni lirik və təsirli hekayələr əlavə etmişdi. Onun "Eşq və intiqam" dramında (1922) ailə faciəsinin sosial kökləri açıqlanmışdı.

Cəfər Cabbarlının "Aydın" (1921), "Oqtay Eloğlu" (1923) romantik faciələrində qəhrəmanların istismara, zülmə, milli ayrı-seçkiliyə qarşı anarxistcəsinə üsyanının labüd uğursuzluğu göstərilir. Dramaturqun "Od gəlini" pyesində (1928) xalqın yadelli işğalçılara və onların mənəvi bayrağı olan yeni ideologiyalara qarşı mübarizəsi təqdir olunur. "Sevil" pyesində (1928) qadın azadlığı, müasirləşmə qarşısında duran manelər və sovet mühitində ailə konfliktinin ictimai xarakteri açıqlanır. "Almaz" (1930), "Yaşar" (1932), pyeslərində kolxoz quruculuğunun, kənddə "yeniliyin" qeyri-humanist yolları, "1905-ci ildə" pyesində (1931), "ayır-buyur" siyasəti yeridən rus imperializminin ciddi qarşıdurmalar özünü göstərirdi. Şair Almas İldırım poeziyada Ə.Cavad və H.Cavad yolunu davam etdirdiyinə görə cəzalandırıldı və ölkədən sürgün edildi.

H.Cavid və Ə.Cavad hədsiz hücumlara məruz qaldı.

Tədqiqatçı T.Qaffarov daha sonra yazır: "S.Rəhmanın 1933-cü ildə yazdığı "Vəfasız" əsərində sovet reallıqları, başqa cür düşündüyü üçün təqib olunan insanın faciəsi inandırıcı boyalarla verilmişdir. Yazıçının 1938-ci ildə yazdığı "Toy" komediyasında mövcud idarəçilik sistemi, onun hakimiyyətə soxularaq dərəbəylik etməyə imkan yaratdığı küt, korafəhim "rəhbərlər" kəskin satira atəşinə tutulur. Həmid Axundlu 1940-cı ildə yazdığı "Kəlifin ucu" romanında, hətta "inqilabçı proletar mühitində" - Bakıda belə kommunist ağın qeyri-mümkünlüyü, təbii olaraq, milli ruhun üstün gəlməsini təsvir etmişdi. Qantəmirin (Qafur Əfəndiyev) 1935-ci ildə yazdığı "Kolxozustan" povestində Azərbaycanda kollektivləşmənin üsulları, əhalidə onlara müxtəlif münasibət təbii boyalarla və canlı obrazlarla əks olunmuşdu.

Bolşeviklər, sovet hökuməti Azərbaycan ədəbiyyatını, ədəbi qüvvələri imperiyaya, onun cəfəng ehkamlarına xidmətə cəlb etməyə çalışırdılar. 1922-ci ildə "Türk Ədib və Şairlər İttifaqı" və ya "İldırım" dərnəyi, 1925-ci ilin martında "Ədəbiyyat Cəmiyyəti" yaradılmışdı. Lakin artıq püxtələşmiş, müqtədir həmkarların birləşdiyi bu təşkilatlara yuxarıdan təzyiq göstərmək, demək olar ki, qeyri-mümkün idi. Buna görə də 1925-ci ildə "Kommunist" qəzeti yanında "Qızıl Gənc Qələmlər Cəmiyyəti"də təşkil olunmuşdu. 1926-cı ilin noyabrında "Qızıl Qələmlər Ədəbiyyat Cəmiyyəti" və "Qızıl Gənc Qələmlər Cəmiyyəti" "Qızıl Qələmlər İttifaqı"nda birləşdirildilər. Bu ittifaqın əsasında 1928-ci ildə "Azərbaycan Proletar Yazıçılar Cəmiyyəti" yaradıldı. Lakin bolşeviklər bu da qane etmirdi. Partiyanın göstərişi ilə işləyən müti aparat yaratmaq mümkün olmur, təşkilatın adı dəyişdirilsə də, onlarda ustad sənətkarların nüfuzu zərbə altında qalırdı. "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında ÜİK (b) P MK-nın 1932-ci il 23 aprel tarixli qərarı ilə "Azərbaycan Yazıçılar İttifaqı" təsis edildi, partiyanın, habelə, imperiya təhlükəsizlik orqanlarının bu təşkilata - yazıçı və şairlərin yaradıcılığına nəzarət gücləndirildi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

Teymur" pyesində (1925) türk dünyasının ümumi qəhrəman tipini yaradır. Türkləri birliyə çağırır. O, "Nil yavrusu" (1926), "Azər" dastanı, "Telli saz" , "Kor neyzən" (1930), "Xəyyam" (1935) əsərlərində istibdada, müstəmləkə zülmünə, milli əsarətə qarşı çıxır, azadlıq ideyalarını tərənnüm edir. "Səyavuş" pyesində (1933) şair rifahını öz xalqının birliyində deyil, gah bir sələfi olan İranda, gah da başqa sələfi olan Turanda axtaran igid, lakin fedoralist təbiətli Səyavuşun faciəsini göstərir. "İblisin intiqamı" dramında (1936) Cavid faşizmin inkişafından, dünya müharibəsi təhlükəsinin artmasından dərin narahatlığını ifadə edir.

Cəlil Məmmədquluzadə 1921-ci ildə yazdığı "Danabaş kəndinin əhvalatları" pyesində yadelli ağalardan Azərbaycan kəndlisinin xeyir görmədiyini, həm də xeyir gözləmədiyi, onların hərəkətində haqlı olaraq həmişə "şər" axtardığını açıqlanır. Ədib "Dəli-yığıncağı" komediyasında (1927) adamların taleyini, xalqın ruhunu, mənəviyyatını duya, dərk edə bilməyən yad hakimlərə və həkimlərə tapşırılmasını "dəlilərdən" fəna olan "ağıllıların" dəli əməli kiminin millətlər arasında qanlı ədavət törətməsinin mexanizmi ustalıqla göstərilir.

Hacı Kərim Sanılı "Aran köçü" poemasında (1924), çoban həyatını, xalqın ənənələrini, əməksevərliyini, qonaqpərvərliyini təsvir edir, gözəl təbiət lirikası nümunələri, poetik lövhələr yaradır, oxucuya vətənpərvərlik ruhu aşılayır. Şair "Namus davası" tarixi poemasında (1927) Vətən namusunun, hətta ailə namusundan üstün olduğunu göstərir.

Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, A.Şaiq, S.Hüseyn, M.S.Ordubadi, Əbülhəsən, S.Rəhimov da bu illərdə yazdıqları əsərlərdə xalqın həyatından canlı, realist səhnələr vermişdilər. 20-ci illərin sonu, 30-cu illərin əvvəllərində Azərbaycan ədəbiyyatında roman janrı yenidən canlanır və sürətlə inkişaf etməyə başlayır. Azərbaycan xalqının tarixi və müasir həyat roman mövzusuna çevrilir. Y.V.Çəmənzəminlinin "İki od arasında", M.O.Ordubadinin "Dumanlı Təbriz", Əbülhəsənin "Yoxuşlar", "Dünya qopur", Süleyman Rəhimovun "Şamo", Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti" və s. romanlar yazılır.

Bu dövrdə ədəbi prosesdə

20-30-cu illərdə ədəbiyyata yeni gələn istedadların bir hissəsi bolşevik ideallarının carçılarına çevrilmişdilər. Lakin onlar arasında müxtəlif təsvir vasitələrindən istifadə etməklə imkan daxilində xalqa xidmət göstərməyə çalışan şair və yazıçılar da vardı. Mikayıl Müşfiqin şeirlərində Azərbaycan xalqının daxili aləmi, təbiətlə mənəvi bağlılığı, saflığı lirik boyalarla tərənnüm olunurdu. Səməd Vurğunun lirikası bənzərsizliyi ilə seçilir və xalqın mənəvi dünyasına olduqca doğma idi. Onun "Komsomol poeması"nda (1931-ci ildən yazmağa başlayıb) sovetləşmənin Azərbaycan kəndinə zorla gətirdiyi "yeniliklər"in varlıkasıb bütün xalqın, o cümlədən, ələ hakimiyyət keçmiş təcrübəsiz, kəmsavad zümrənin böyük faciəsinə səbəb olması ustalıqla açıqlanırdı. S.Vurğun "Vaqif" dramında tarixi mövzunu həddindən artıq sərbəst şərh edib ciddi təhriflərə yol versə də, iqtidarı ilə ziyalısı dilbir olmayan xalqın daxili faciəsini göstərməyə müvəffəq olmuşdur.

20-ci illərin əvvəllərində xalq nəğməkarı aşıq Ələsgərin yazdığı qoşmalar və satirik bəndlər geniş yayılmışdı. Yuxarıların təzyiqi ilə 1926-cı ildə toplanmış Aşıqlar Qurultayı "yeni həyatı" ilhamla tərif etməyə çağırmasına baxmayaraq, bir çox aşıqlar, xüsusən, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmkir, Aşıq Mirzə və başqaları xalq yaradıcılığının bu formasının təmizliyinin qorunub-saxlanılmasında mühüm rol oynadılar.

20-30-cu illərdə dünya xəzinəsinin ən qiymətli inciləri, o cümlədən, Nizaminin poemaları və şeirləri, V.Şeksprin və İ.Şillerin faciələri, A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanı Azərbaycan dilinə tərcümə olunmuşdu. 1924-cü ildə M.Füzulinin, 1928-ci ildə M.F.Axundovun, 1932-ci ildə M.Ə.Sabirin yubileyləri, Ə.Nəvainin 500, A.S.Puşkinin 100, Ş.Rustavelinin 750, Firdovsinin 1000 illiyi geniş qeyd edilmişdi.

Azərbaycanın o zamankı ədəbi mühitinə S.Yeseninin (1923-1924), V.Mayakovskinin (1926-1927), A.Borbyusun (1927), N.Hikmətin (1927), M.Qorkinin (1928) və başqa xarici yazıçı və şairlərin burada olması da az təsir göstərməmişdi.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# Çaytikanı yağının çoxşaxəli təsiri

***Zahiri görkəmi ilə murdarçanı xatırladan çaytikanı əsasən çaylaq yerlərdə, çay və göl kənarlarında bitir, meyvələri ananas dadı verir. Quşlar onun meyvələrini xüsusilə çox sevirlər. At və qoyunlar çaytikanı yarpağı yeyəndə onların tükü və yunu parlaq olur. Meyvələrindən jele, kisel, kompot, şirə və mürəbbə hazırlanır. AZƏRTAC xəbər verir ki, işıqsevən və soyuğadavamlı bitki olan çaytikanının 45 dərəcə və hətta ondan da aşağı şaxtaya davamlılığı onun şimal regionlarında yetişməsinə imkan verir. Bol orqanik maddələr və fosfor olan yumşaq torpaqlarda daha yaxşı yetişir. Bitkinin meyvə və yağının şəfaverici xüsusiyyəti aşkar olunandan sonra plantasiyalarda da yetişdirilməyə başlanılıb.***



Tərkibindəki bioloji aktiv maddələr dəri yanıqları zamanı regenerasiya prosesini sürətləndirir. Çaytikanı yağının tərkibindəki sterin maddəsi yaranın sağalmasını sürətləndirir. Çaytikanı yağı antibakterial təsirə malik olduğuna görə onun preparatları qızılı stafilokok, eşerixiya, protozoyların və hemolitik streptokokların inkişafına mane olur. Tərkibindəki tokoferol maddəsi sayəsində qaraciyərin lipid-maddələr mübadiləsinə təsir edir, lipidlərin hüceyrə membranında oksidləşmə-reduksiya proseslərinə təsir edərək bioloji membranı kimyəvi amillərin təsirindən qoruyur.

Çaytikanı yağının istifadəsi yanıqda, trofik yara və ölü dəri epitelizasiyasına yardım edir, yataq yarası, irinli yaraları tez sağaldır. Ginekologiyada uşaqlıq boynunun eroziyası, digər iltihabi xəstəliklər zamanı tətbiq edilir. Göz yanıqlarında terapevtik effektivliyə malikdir. Regenerativ tərkibinə görə oftalmologiyada gözün buynuz qişanın infiltrat dərəcəsini aşağı salmaq üçün çaytikanı yağından istifadə edilir. Çaytikanı yağı mədənin və onikibarmaq bağırsağın xorasının müalicəsində yüksək səmərə verir və mədə turşusunun tərkibi dəyişmir.

Lakin kəskin xolesistit, hepatit, pankreatit və digər mədəaltı vəzi xəstəliklərində, ishala meyillilik zamanı ondan istifadə etmək olmaz. Hiperasid qastritdə mədə şirəsinin sekresiyasını artırdığına görə çaytikanı yağından istifadə etmək əks göstərişdir.

Yaxşı yetişmiş meyvələr suyun içinə qoyularaq zəif ocaqda 20 dəqiqə bişirilir, əzilir, süzgəcdən keçirilir, öz çəkisi qədər şəkər tozu əlavə edilir, ağzı bağlı qabda saxlanır, yorğunluq və ümumi halsızlıq zaman jele şəklində qəbul edilir. Çaytikanı yağı kamfora yağı ilə qarışdırılandan sonra sinə və kürək nahiyəsi ovulur. Yarım stəkan çaytikanı yağı 2 xörək qaşığı kamfora yağı ilə qarışdırılıb axşamlar içilməsi çətin sağalan və hətta ağır xəstəlikdən sonra qalan öskürək zamanı tətbiq edilir.

500 qr süd və 4-5 xörək qaşığı çaytikanıləti mikserlə qarışdırılır, şəkər tozu qatılır, iri qədəhlərdə süfrəyə verilir. 3 stəkan çaytikanı ləti, 50 qram bal, yarım stəkan nanə dəmləməsi və 1 stəkan su qarışdırılaraq soyuducuda 2 saat saxlanandan sonra süfrəyə verilir.


## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət ixtisası üzrə IV kurs tələbəsi Qardaşova Fidan Nurəddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası ixtisası üzrə I tədris elmin magistrantı Namazova Aynur Murad qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.**




# Braziliya, Uruqvay, Argentina və Kolumbiya millilәri dünya çempionatına birbaşa vəsiqə qazanıblar



Oktyabrın 11-də oynanılan beş qarşılaşma ilə futbol üzrə dünya çempionatının Cənubi Amerika üzrə seçmə mərhələsi başa çatıb. AZƏRTAC xəbər verir ki, bu oyuna qədər mundiala vəsiqəni təmin etmiş olan Braziliya yığması evdə Çili millisinə 3:0 qalib gələrək bu komandanın çempionata yollanmaq ümidlərinin üzərindən xətt çəkib. Bu qrupdan çempionata ikinci vəsiqənin sahibi Boliviyanı 4:2 hesabı ilə məğlub edən Uruqvay millisi olub.

Argentina millisi səfərdə Lionel Messinin het-triki sayəsində Ekvadora qalib gələrək (3:1) çempionata yollanmaq hüququnu sonuncu matçda təmin edib.

Kolumbiya yığması isə sonuncu oyunda rəqib meydanında Peru ilə heç-heçə (1:1) etməsinə baxmayaraq, bu qrupdan çempionata dördüncü vəsiqəyə sahib olub. Beləliklə, Braziliya (41 xal), Uruqvay (31), Argentina (28) və Kolumbiya (27) milli komandaları gələn il Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatının final mərhələsinə birbaşa vəsiqə qazanıblar. Aktivində 26 xal olan Peru yığması pley-off mərhələsində mübarizə aparacaq. Çili millisi isə Peru ilə eyni xala malik olsa da, top fərqinə görə mundialda iştirak şansını itirib.

# Robert Levandovski dünya çempionatının Avropa zonası üzrə seçmə mərhələsinin bombardiri olub



Futbol üzrə Polşa yığmasının hücumçusu Robert Levandovski dünya çempionatının Avropa zonası üzrə seçmə mərhələsinin bombardiri olub. "Sports.ru" saytı xəbər verir ki, "Bavariya" klubunun 29 yaşlı hücumçusu 10 oyuna 16 qol vurub və yeni rekord müəyyənləşdirib. İlk üçlüyü 9 oyuna 15 qolla Portuqaliya yığmasının üzvü Kriştianu Ronaldu və 8 oyuna 11 qolla belçikalı futbolçu Romelu Lukaku tamamlayır. Qeyd edək ki, hər üç yığma komanda - Polşa, Portuqaliya və Belçika dünya çempionatının final mərhələsinə vəsiqə qazanıb.

# Tamblinqçimiz İspaniyada bürünc medal qazanıb



Batut gimnastikası üzrə yığma komandamızın üzvləri Valladoliddə (İspaniya) keçirilən dünya kuboku yarışlarında iştirak ediblər. Azərbaycan Gimnastika Federasiyasının məlumatına görə, turnirdə ölkəmizi Svetlana Makştaryova, Veronika Zemlyanaya, İlya Qrişunin, Oleq Piunov, Ruslan Ağamirov və Mixail Malkin təmsil ediblər.

Bir neçə gün əvvəl Portuqaliyada dünya kubokuna sahib olan Mixail bu turnirdə də uğurlu çıxışı ilə yadda qalıb. Gimnastımızın tamblinq cığırındakı icrasının hakimlər tərəfindən 70.900 xalla dəyərləndirilməsi, ona yarışların bürünc medalını qazandırıb.

# Robben Hollandiya millisi ilə vidalaşdı!

Hollandiya millisinin aparıcı üzvü Aryen Robben DÇ-2018-in seçmə mərhələsi çərçivəsində İsveçə qarşı keçirilən matçdan sonra yığma karyerasını sonlandırdığını açıqlayıb. SİA-nın məlumatına görə, 33 yaşlı futbolçu bütün diqqətini "Bavariya" klubuna yönəltmək istədiyini deyib: "Mənim üçün özəl və çətin bir qarşılaşma idi. Həmçinin, bu, milli komandadakı son oyunum idi. Artıq bütün diqqətimi klubuma yönəltmək istəyirəm".

Qeyd edək ki, Robben milli karyerasını 37 qol və 29 məhsuldar ötürmə ilə tamamlayıb. İsveçi 2:0 hesabı ilə məğlub etmələrinə baxmayaraq, hollandlar mundiala vəsiqə qazana bilməyiblər.


***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**